# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 07 (3423) Cümə axşamı / 17-23 fevral 2022-ci il Qiymәti 40 qəpik

MÜSAHİB

## “Rus sülhməramlıları üçün “separatçı” anlayışı yoxdur”



**Aleksandr Perenjiyev,**
“Rusiya zabitləri” ekspert şurasının üzvü, hərbi politoloq

***G.V. Plexanov adına Rusiya İqtisad Universiteti Politologiya və sosiologiya kafedrasının dosenti, “Rusiya zabitləri” ekspert şurasının üzvü, hərbi politoloq Aleksandr Perenjiyev Ukrayna ətrafındakı son gərginlik, eləcə də Rusiyanın Azərbaycanın Qarabağ torpaqlarındakı rəsmən sülhməramlı sayılan hərbi kontingentinin son 1 il 3 aylıq fəaliyyəti ilə bağlı Hafta.az əməkdaşının bir sıra suallarını cavablandırıb.***

*Kalininqrad vilayətinə və Rusiyanın Qara dəniz sahillərinə qarşı da zərbə qrupları yaradılır*

Səh. 3

# Bakının Mərkəzi Rayonu niyə yaradılmır?

**Artıq iki ildən çoxdur ki, Bakının Mərkəzi Rayonunun yaradılması ilə bağlı müzakirələr səngimir. Milli Məclisdə Gəncə şəhərinin Nizami və Kəpəz rayonlarının ləğv edilməsi ilə bağlı qərarın qəbulu bu məsələni yenidən gündəmə gətirib. Bu və ya digər məsələlərlə bağlı “Həftə içi” qəzetinə müsahibə verən Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri, memar Elbay Qasımzadə maraqlı məqamlara toxunub:həmsöhbət oldu.**



**Elbay Qasımzadə,**
Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri



***- Bakıda mərkəzi tarixi rayonun yaradılması ilə bağlı fikirlər var. Bu barədə siz özünüz təkliflə çıxış etmisiniz. Prezidentin mədəniyyət işçiləri ilə görüşündə də bu təklif səsləndirilib. Necə hesab edirsiniz, Bakıda Mərkəzi Rayonun yaradılması hansı zərurətdən meydana çıxıb?***

- İki il əvvəl cənab Prezident Heydər Əliyev Mərkəzində sənət adamları ilə görüş keçirən zaman orada belə bir təkliflə çıxış etmişəm. Burada məqsəd nədir...

Məlumdur ki, Bakı şəhərinin tarixi hissəsi 4 əsas - Səbail, Yasamal, Nəsimi, Nərimanov rayon əraziləri arasında bölüşdürülüb. Bu rayonlara rəhbərlik edən şəxslər yüksək bilik və mədəniyyət səviyyələrinə malikdirlər. Hər birinin əraziyə yanaşması müxtəlifdir.

Məsələn, Nizami küçəsi, keçmiş “Tarqovı”nın sağ tərəfi Nəsimi rayonu, sol tərəfi Səbail rayonudur. Nəsimi rayonu sağ tərəfdə fəaliyyət göstərir, sol tərəfdə də Səbail rayonu abadlıq işləri aparır. Belə olmaz, bir şəhərdə, bir küçədə bütün işlər məhz bir mərkəzdən idarə olunmalıdır.

Bu pərakəndəlik ucbatından son 15 il ərzində şəhərin tarixi mərkəzində nə qədər yüksəkmərtəbəli binalar tikilib. Hansı ki, heç yeri deyil. Onlar tarixi mühiti dağıdır.

Mədəniyyət işçiləri ilə keçirilən məlum görüşdə verdiyim bu təklif cənab Prezident tərəfindən müsbət qarşılandı. Prezident yekun çıxışında məsələyə çox diqqətlə yanaşdı, bu barədə fikirlərini bölüşdü, tapşırıqlar verdi. Buna baxmayaraq məsələ həllini tapmır.

Mətbuatda gedən məlumatlardan görürəm ki, bəzi bisavadlar sual verirlər ki, əgər bu mərkəzi rayonda olan abidələr qorunacaqsa, bunun sərhədlərindən kənarda olanlar qorunmayacaq... Bu, sağlam məntiqə sığmayan, savadsız yanaşmadır. Tarixi abidələr ümumiyyətlə dövlət tərəfindən mühafizə olunmalıdır. Bakının “Tarixi Mərkəzi” deyəndə, söhbət tək binalardan, ayrı-ayrı naxışlardan getmir.

> *Mərkəzi rayon mütləq Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində olmalıdır*

Bakının tarixi mərkəzi rayonu şəhərsalma abidəsidir və böyük r ərazini əhatə edir. Bunu mütləq ayırmaq lazımdır.

Burada xüsusi reqlamentlər, tələblər tətbiq olunmalıdır. Mən onun tərəfdarı deyiləm ki, bu, Qoruq olsun. Qoruqda yaşamaq çox çətindir. Bu ərazidə 1 milyona yaxın əhali yaşayır və 780 hektar sahəni əhatə edir.

***- Mərkəzi tarixi rayonun sərhədlərini müəyyən etmisiniz. Bakıda mərkəzi rayonun yaradılması üçün hansı plan-proqram işlənməli, özünü necə xarakterizə etməlidir? Mərkəzi rayonun sərhədləri haradan başlayır, harada bitir?***

- Mərkəzi rayonun sərhədlərini elə o müşavirədən 2 gün sonra cənab Prezidentin tapşırığı ilə müəyyənləşdirib bütün müvafiq təşkilatlara göndərmişəm.

Mərkəzi tarixi rayonun cənub hissəsi dənizkənarıdır. Şimal hissəsi Bakıxanov küçəsi, qərb hissəsi Parlament prospekti, şərq hissəsi Kövkəb Səfərəliyeva küçəsidir.

Cənab Prezidentin tapşırığı ilə rayonun statusu da hazırlanıb. Həmin statusu görmüşəm və ona müəyyən təkliflər, əlavələr də etmişəm. Maraqlıdır ki, məsələ öz həllini tapmır.

Görüşdən sonra cənab Prezident iki dəfə müxtəlif məmurlara tapşırıq verib.

Mətbuat da bizə istinad edərək, Memarlar İttifaqı sədrinin verdiyi bu təklifin, Prezident tərəfindən verilən tapşırıqların niyə həllini tapmadığı barədə məsələni gündəmə gətirib. Bu suallara cavab verə bilmirlər. Problemin önündə insan faktoru dayanır. Belə olmasaydı, çoxdan həllini tapmışdı.

Mərkəzi rayon xüsusi bir ərazi vahidi olmalıdır. Özünün ayrıca idarəçiliyi olmalıdır. Özünün adı olacaq, ya mərkəzi rayon olacaq, ya başqa ad seçiləcək, bilmirəm. Mənim əsas məqsədim onu qoruyub saxlamaqdır. Orada aparılan tikinti, abadlıq, başqa növ fəaliyyətlər hansısa reqlamentlərlə tənzimlənməlidir. Yeni Yasamalda olan yanaşma ilə mərkəzi rayona olan yanaşma eyni ola bilməz.

Səh. 2

MÜSAHİB



**Cümşüd Nuriyev,**
siyasi elmlər doktoru, politoloq

- Ukrayna “gülləsi” ilə 4-5 “dovşan” vurmaq niyyətindədirlər
- Xalqın diqqətini əsas məsələlərdən yayındırmaq üçün müharibə etmək Kremlə sərf edir
- Rusiyanın Ukrayna ilə müharibəyə başlaması Çinin də marağındadır

Səh. 5

GÜNÜN FOTOSU...



**Hərbi hissələrin döyüşə hazırlığı yoxlanılıb.**

GÜNÜN SİTATI

> *“ABŞ Azərbaycanın müstəqilliyinə və suverenliyinə güclü dəstək verir”*



**Li Litzenberqer,**
ABŞ-ın Azərbaycandakı səfiri

KARİKATURA



**“Akıncı” Azərbaycanda istehsal edilə bilər.**

## Pirlərdə yığılan pullar Hara və necə xərclənir?

**Elşad Miri,**
dinşünas alim

Pirlərə yığılan pullar hara gedir, nəyə xərclənir, hamısı Komitəyə məlumdur.

Səh. 6

STATİSTİKA



**Azərbaycan əhalisinin sayı açıqlanıb. Dövlət Statistika Komitəsindən hafta.az-a verilən xəbərə görə, 2021-ci ilin yanvar-dekabr aylarında əhalinin sayı 37 233 nəfər və ya 0,4 faiz artaraq 2022-ci il yanvar ayının 1-i vəziyyətinə 10 156 366 nəfərə çatıb.**

Əhalinin 53,0 faizini şəhər, 47,0 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.



Səh. 7

## Elektromobillərin sayı artır, ancaq...

**XƏBƏR LENTİ**

## Üçtərəfli bəyanatların icrasını müzakirə edilib



**16 fevral 2022-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyindən hafta.az-a verilən məlumata görə, nazirlər ikitərəfli əməkdaşlıq gündəliyinin aktual məsələlərini müzakirə ediblər. Cari ildə iki dövlət arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunacağını nəzərə alaraq, tərəflər bu xüsusda təşkil ediləcək tədbirlərə dair fikir mübadiləsi aparıblar. Nazirlər, regiondakı vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər. Tərəflər, həmçinin Ukrayna ətrafındakı mövcud vəziyyətə dair fikir mübadiləsi aparıblar. Telefon danışığı zamanı, habelə Azərbaycanın ATƏT-in Təhlükəsizlik üzrə Əməkdaşlıq Forumunda sədrliyi çərçivəsində əməkdaşlıq müzakirə mövzusu təşkil edib.

## ABŞ şirkətləri Qarabağda minaların təmizlənməsində iştirak edə bilər

**ABŞ şirkətləri Qarabağda minaların təmizlənməsində iştirak edə bilər. Bunu jurnalistlərə ABŞ-ın Azərbaycandakı səfiri Erl Litsenberger deyib. "Mən Ağdam və Zəngilanda oldum, problemin miqyasını gördüm.**

Biz Azərbaycan Minatəmizləmə Agentliyi ilə sıx əməkdaşlıq edirik. Bu, böyük layihə olacaq. Mən istərdim ki, ABŞ şirkətləri bu prosesdə rol oynasın. Fikrimcə, hökumət indi bu məsələni nəzərdən keçirir. Orada yerli resurslardan istifadəyə üstünlük verilir. Amma ABŞ şirkətlərinin bəzi texnologiya və üsulları var ki, hökumət üçün maraq kəsb edə bilər. Bir müddət əvvəl ABŞ hökuməti regionda bu problemin həlli üçün 500 min dollar vəsaitin ayrılması barədə elan edib.

Bundan başqa, "Marshall Legacy Institute" qeyri-hökumət təşkilatı hökumətlə və Azərbaycan Minatəmizləmə Agentliyi ilə işləyir. "Marshall Legacy Institute" minaların tapılması üçün itlər təqdim edir. Bu il artıq 30-a yaxın it təhvil verilib", - deyə səfir bildirib.

## Azərbaycanın hazırladığı hesabat BMT-nin rəsmi sənədi kimi yayılıb

**Azərbaycan tərəfinin hazırladığı "Ermənistan tərəfindən qeyri-kommersiya təşkilatları və xeyriyyə qurumlarından korrupsiya, çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi məqsədilə sui-istifadə edilməsi" adlı hesabat BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi kimi yayılıb. Bu barədə hafta.az-a Azərbaycan Xarici İşlər Nazirliyindən (XİN) məlumat verilib.**

Hesabatda 44 günlük Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə Ermənistan hökuməti tərəfindən bir çox ölkələrdə fəaliyyət göstərən erməni diaspor təşkilatları vasitəsilə humanitar yardım adı altında, beynəlxalq maliyyə ödənişi sistemlərindən istifadə etməklə qanunsuz ianə toplanması kampaniyalarının təşkil edildiyi və həmin kampaniyalar çərçivəsində yığılan vəsaitin Azərbaycanın suveren əraziləri daxilində onun mülki əhalisinə qarşı terror fəaliyyətinin maliyyələşdirilməsi məqsədilə xərcləndiyi vurğulanır.

Ermənistanın dövlət rəsmilərinin bəyanatları və erməni ictimai mənbələrinin məlumatları əsasında hazırlanmış hesabatda təkcə Vətən müharibəsi dövründə 73 ölkədə yaşayan erməni diaspor təşkilatları tərəfindən 170 milyon ABŞ dollarından artıq vəsaitin toplandığı və bunun 110 milyon ABŞ dolları hissəsinin müharibə xərclərinin ödənilməsi məqsədilə Ermənistanın dövlət büdcəsinə köçürüldüyü qeyd edilir. Qeyd olunan fakt Ermənistan Baş nazirinin 21 aprel 2021-ci il tarixində Ermənistan parlamenti qarşısında 2020-ci ilin dövlət büdcəsinin icrası ilə bağlı çıxışında əksini tapmışdır.

Əksəriyyəti Ermənistanın siyasi rəhbərliyinin təmsil olunduğu "Hayastan All Armenian Fund" tərəfindən təşkil və idarə olunan bu cür ianə kampaniyaları Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanatdan sonra da davam etdirilməkdədir.

Xarici İşlər Nazirliyi bildirir ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinə qarşı yönəlmiş və onun ərazisinə qanunsuz maliyyə axını yaradan bu cür fəaliyyətlər Azərbaycanla yanaşı, müvafiq erməni diaspora təşkilatlarının qeydiyyatda olduğu ölkələrin milli qanunvericiliklərinin, eləcə də çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində mövcud olan beynəlxalq öhdəliklərin kobud şəkildə pozulmasıdır.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Bakının Mərkəzi Rayonu niyə yaradılmır?



**Elbay Qasımzadə,**
Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri

◂ əvvəli 1-ci səhifədə

***- Mərkəzi rayon ərazisi qurularkən orada yaşayan əhalinin öz şəhərinə yanaşma xüsusiyyətləri necə, nəzərə alınacaq, necə qorunacaq?***

- Abidələrimizin korlanmasında sakinlər özləri günahkardırlar. Heç bir abidəni nə nazir, nə icra başçısı gəlib sındırmır. Bunu orada yaşayan adamlar edir. Biri pəncərəni sındırır qapı edir, biri qapını sındırır pəncərə qoyur və yaxud biri ara divarları sındırır. Pis vəziyyətə düşəndən sonra, gəlib deyirlər ki, bu, bərbad gündədir, sökmək lazımdırş. Haray salırlar ki, sındırmaq olmaz, abidədir. Bəs bundan belə istifadə etdikdə heç kim abidə olduğunu görmürdü?..

Mühafizəkarlıq hissiyyatı hər vətəndaşda olmalıdır və bunu hər kəsdə tərbiyə etmək lazımdır. Lap uşaqlıq yaşından, uşaq bağçasından başa salmaq lazımdır ki, millətin tarixi irsi müqəddəsdir. Bu olmasa, heç vaxt istədiyimiz nəticəni əldə etməyəcəyik. Vətəndaş öz məsuliyyətini dərk etməldiir. Bəzən bir abidə dağılanda deyirlər ki, Mədəniyyət Nazirliyi hara baxır? Nazirlik hər binanın qarşısına mühafizəçi qoymalıdır? O binada yaşayan insanlar özləri mühafizəçi olmalıdırlar. O öz tarixinin, mədəniyyətinin, mədəni irsinin qoruğunda durmalıdır.

Söhbət ondan gedir. Ona görə də biz hələlik bu işləri inzibatçılıqla həyata keçirməyi təklif edirik. Mərkəzi rayon yaranarsa, ona həm dövlət tərəfindən diqqət çox olar, həm məsuliyyət çox olar. Burada hər fəaliyyət növü hansısa ciddi reqlamentə tabe olmalıdır. Bu istiqamətdə maarifləndirmə mütləqdir.

Mərkəzi rayon mütləq Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində olmalıdır. Ümumiyyətlə, şəhərin ərazisi hansı status daşıyırsa-daşısın, Bakı ərazisidir. İdarəetmə Bakı Şəhər İcra Hakimiyyətindədir.

***- Şəhərlərdə, meydanlarda heykəllərin, ayrı-ayrı abidələrin qoyulması nə dərəcədə o şəhərin memarlıq üslubuna uyğunlaşdırılmalıdır? Bu, həm də o şəhərə və onun sakinlərinə nə vəd edir? Heykəllər lazımdırmı?***

- Heykəl hər bir tarixi dövrün bir nişanəsidir. Parisdə Paris Komunasının ən qəddar rəhbərlərindən olan Robers Pierin heykəli dayanıb. Bununla xalqa göstərilir ki, dövlətin tarixində belə bir dövr də olub və həmin tarixdə bu şəxslər nə edib. Bu, gələcək nəsillərə işarədir ki, onu təkrarlamaq olmaz. Eyni zamanda, orada böyük yazıçıların, sənət adamlarının heykəlləri var. Həmçinin Avropada, dünyanın bütün şəhərlərində heykəllər var.

Heykəllər gərəklidir, bu, xalqın tarixi mədəniyyətidir. İkincisi, incəsənət nümunəsidir. Heykəltəraşların, memarların yaradıcılıq əsəridir və nəyə görə də xalq bunu görməsin, bilməsin?! Məncə, mənfi-müsbətləri ilə tarixi heç vaxt pozmaq olmaz, tarix mütləq qalmalıdır. Tarixə qiymət vermək isə insanların öz hüququdur.

***- Hər kəsə bəllidir, torpaqlarımız 30 ilə yaxın müddət ərzində erməni təcavüzünə məruz qalıb. Çox dəyərli abidələrimiz məhv edilib, əvəzində müvəqqəti sülhməramlıların iştirakı ilə erməni faşistlərinə heykəllər qoyulur, abidələr tikilir. Bu saxta abidələrin aqibəti necə olmalıdır?***

- YUNESKO-nun belə bir qanunu var ki, zəbt olunmuş ərazilərdə dini məbədlər, abidələr qoyula bilməz. O torpaqlar zəbt olunub. Ermənilər 30 il müddətində zəbt olunmuş ərazilərdə heykəllər qoydular, 19 daxma tikib adını kilsə qoydular, əslində heç kilsəyə də oxşamır. Bunların hamısını ərazilərdən yığışdırmalıyıq. Həmin yerlər erməni torpaqları deyil, onların tarixi, mədəniyyəti deyil. Bura Azərbaycan torpaqlarıdır. Niyə mənim torpağımda hansısa faşistin heykəli durmalıdır?!

...Ermənilər o heykəlləri Yerevanda qoysun. Nəyə görə Qarabağda qoymalıdır?

***- Ermənilər Moskvadan bəyanatlar verdilər ki, Azərbaycan Qarabağda ermənilərə aid abidələri dağıdıb. YUNESKO və bəzi təşkilatlar erməniləri dəstəkləyən ikili çıxışlar etdilər. YUNESKO-nun missiyasının regiona səfəri gündəmdədir. Bu səfərdən gözləntiniz nədir?***

- Çox təəssüf ki, yenə də ikilistandartlar olacaq. YUNESKO-nun yeri Parisdir. Parisdə ermənilərin təsiri çox yüksəkdir. Bildiyimə görə Parisdə kifayət qədər azərbaycanlı da yaşayır. Amma fəaliyyətsizdirlər. Öz tərəflərindən heç bir aksiya təşkil etmirlər. Hərdən bizim səfirliyin qarşısında ermənilər piket keçirəndə azərbaycanlılar çıxıb onları qovur. Bu çox xırda məsələdir. Əsas odur ki, cəmiyyətlərdə təbliğat aparılmalı, Qarabağın Azərbaycanın ərazisi olması bütün yollarla göstərilməli, tanıdılmalıdır. Tək Fransada əksəriyyət elə bilir ki, Qarabağ ermənilərə aiddir. Ermənilər bu sahədə çox yalanlar uydururlar. Onların prezidentləri də bu fikirdədir. Son dövrlər ya nəsə baş verib, ya da başa düşüblər ki, soyuqdur, qışdır, Azərbaycan qazı olmasa soyuqdan ölərlər. YUNESKO-nun gəlib burada əsl mənada haqq-ədalətlə hansısa qərar qəbul etməsinə inanmıram. Uzun zaman gəlmək istəmirdilər. İndi-indi deyəsən, yığışıb gəlmək istəyirlər. Amma özləri ilə kimləri gətirəcəklər...

***- Bakıda son qoyulan abidə Zeynalabdin Tağıyevin heykəli oldu. Məşhurlardan kimlərin heykəllərinin hazırlanmasını məqsədəyğun sayardınız? Heykəllər üçün yerlərin seçilməsində hansı amillər əsas götürülməlidir?***

- Bizim çox böyük mədəniyyət xadimlərimiz var. Bir çox bəstəkarların, şairlərin heykəlləri qouilub. Bizim çox məhşur rəssamlarımızın olmasına baxmayaraq, onların heykəlləri çox azdır. Memarlarımızdan Zivər bəy Əhmədbəyovun heykəli var. Müşavirədə bu barədə də təklif verdim ki, dahi memarlar Sadıq Dadaşova, Mikayıl Hüseynova heykəllər qoyulsun. Prezident də bunu təqdir etdi. Bu məsələ bu günə qədər həllini tapmır. İlk növbədə, mədəniyyət xadimlərinin abidələri qoyulmalıdır. Onlar ölkənin, millətin tarixidir.

> *"Heykəllərə yerlərin seçilməsini mütəxəssislər, şəhər memarlığı ilə məşğul olan qurumlar etməlidir*

Heykəllərə yerlərin seçilməsini mütəxəssislər, şəhər memarlığı ilə məşğul olan qurumlar etməlidir. Bunun üçün təkliflər verilməlidir, bu da dövlət başçısı tərəfindən təsdiqlənməlidir. Abidənin qoyuluşu illər çəkir. Əvvəl mühit tapılardı, sonra heykəlin layihəsi hazırlanardı. Heykəl ətraf mühitin ruhuna uyğunlaşmalıdır.



Qeyd edim ki, bizim çox qədim və dünyada məşhur olan memarlıq məktəblərimiz var: Təbriz, Naxçıvan, Qarabağ, Şirvan... Bu məktəblərin nümayəndələri orta əsrlərdən başlayaraq Uzaq Şərqdən Kardovaya - İspaniyaya qədər abidələr qurublar. Hamı bilir ki, bunlar Təbriz məktəbinin abidələridir. Əmir Teymur Səmərqəndi əsir alıb-apardığı Təbriz memarlarına tikdirib. Şah Cahan Tac-Mahalı tikdirəndə Təbrizdən ustalar gətirib ora. Şah-Cahan özü türk olub. Azərbaycan memarlığı kifayət qədər zəngindir və dünyada öz izlərini qoyub. Zəngin memarlıq ənənəsi bu gün də davam edir.

***- İşğaldan azad olunmuş ərazilərdə bərpa işlərinə başlanılıb. Azad olunmuş ərazilərdə müasir memarlıq sənəti hansı prinsip üzərində qurulmalıdır? Həmin torpaqlarda düşmənin gözünü qorxudan, ona işğalçı olduğunu xatırladan hansı abidələr qurulmalıdır?***

- Bir məsələni xatırladım: 1980-ci illərin əvvəlləri idi. Ulu öndər Moskvaya çağırılmamışdı, Azərbaycanda fəaliyyət göstərirdi. Bir gün mənə onun adından tapşırıq verildi. Gənc memar kimi Layihə İnstitutunda işləyirdim. Tapşırıldı ki, Sədərək tərəfdə Ermənistanla sərhəddə bir yer seç.

Heydər Əliyev tapşırıq vermişdi ki, orada müasir memarlıq üslubunda, müasir tələblərə uyğun qəsəbə tikilməlidir. Qəsəbə qonşu tərəfə göstərməlidir ki, Azərbaycanın qüdrəti nədir.

...Sovet dövrü idi, 1980-ci illərin əvvəli... Həmin qəsəbə tikildi. Bu gün də durur. Düzdür, müharibə zamanı dağıntılara məruz qaldı, amma bərpa olunub, yenə də orada insanlar yaşayırlar.

Bu yaxınlarda Cocuq-Mərcanlı qəsəbəsi tikildi, o da müasir formadadır. Bu ərazidə işlər iki istiqamətdə gedir. Abidələrimiz tam elmi əsaslarla bərpa olunmalı, bərpa işləri getməlidir.

Hansı abidənin çox hissəsi uçubsa, onları konservasiya etməliyik. Elə abidələr də var, onları olduğu kimi saxlamalıyıq. Kolizey, Parfinon konservasiya olunaraq, o cür də saxlanılır.

Həmin abidələri bərpa etsək, elə görünəcək ki, yeni inşa olunub. Onları təzədən inşa etmək yox, konservasiya lazımdır. Hansı abidələr ki, vaxtilə erməniləşdirilib, onları ilkin vəziyyətə gətirmək lazımdır.

Yeni şəhərlərin, qəsəbələrin tikilməsi bunlar müasir üslubda olmalı, müasir tələblərə cavab verməlidir. Azərbaycanın memarlıq irsinin prinsipləri və hansısa proqressiv elementləri istifadə edilərək bilinməlidir ki, bura Azərbaycandır. Bakıya gələn insanlar gedib o abidələri görəndə bilməlidir ki, azərbaycanlılar həqiqətən də qüdrətli xalqdır. Viran qoyulmuş torpaqlarda nələr yaradıblar. İşğaldan azad olunmuş rayonlarda qoyulan heykəllər Azərbaycanın qüdrətini göstərməlidir.

✍ *Tahirə Qafarlı*

**Aktual**

# Bankların qara siyahısı

**Azərbaycanda 2015-ci ildə baş verən devalvasiyadan sonra böyük çətinliklərlə üzləşən on minlərlə bank müştərisinin kredit tarixçəsi korlanıb. Təcrübə göstərir ki, əksər hallarda, mənfi kredit tarixçəsinə malik şəxs kredit almaq üçün müraciət etdikdə, maliyyə vəziyyəti düzəlmiş olsa belə bank tərəfindən şəxsin bu müraciətinə rədd cavabı verilir. Hal-hazırda bu xoşagəlməz vəziyyət ən çox qeydə alınan faktlardan biridir. Lakin bütün bunlara baxmayaraq, mənfi kredit tarixçəsinə malik olan şəxs də bankdan kredit götürmək hüququna malikdir.**



## Vətəndaş korlanmış kredit tarixçəsini necə yaxşılaşdıra bilər?

Maraqlıdır, vətəndaş korlanmış kredit tarixçəsini necə yaxşılaşdıra bilər? Hazırda kredit tarixçəsi korlanmış bank müştərilərinin sayı nə qədərdir? Kredit tarixçəsinin korlanması barədə məlumatlar müvafiq reystrdə neçə müddətə qədər saxlanılır?

■ **Məsələni hafta.az-a şərh edən bank məsələri üzrə ekspert, hüquqşünas Əkrəm Həsənov bildirib ki, vətəndaşın problemli krediti həll olunsa da, bu hal onun kredit tarixçəsində hər zaman qalacaq:** "Bu o deməkdir ki, həmin şəxsin problemli krediti olub və tarixçədə də görünəcək ki, bu problem həll olunub. Mənfi kredit tarixçəsi əslində banklara qanunla qadağan etmir ki, yeni kredit versinlər. Sadəcə banklar həmin problemləri görərək müştəriyə kredit verməkdən qorxur. Devalvasiyadan sonra problemli krediti yaranan və kredit tarixçəsi korlanan şəxsin tarixçəsində bu problem hər zaman görünəcək və banklar biləcək ki, bu şəxs nə vaxtsa bankın pulunu vaxtında ödəməyib. Banklar üçün bu, özü məlumatdır. Gecikmələrin isə devalvasiya ilə bağlı olub-olmamasının heç bir aidiyyəti yoxdur. Fakt odur ki, müştərinin gecikməsi var. Həmin müştəriyə hansı formada yanaşılacağı isə hər bir bankın və ya bank olmayan kredit təşkilatının özündən asılı olan məsələdir. Onlar istəsələr belə müştərilərə kredit verərlər, istəməsələr verməzlər. Bəziləri deyirlər ki, kredit tarixçəsini dəyişmək olarmı? Əlbəttə ki, olmaz. Çünki artıq bu tarixdir. Amma bankların həmin müştərilərə qarşı münasibətini dəyişmək mümkündür. Bunun yeganə yolu banklardan kiçik həcmli kredit götürüb, müqabilində girov qoyulmasıdır. Tutaq ki, şəxs 10 min manatlıq kredit götürüb, əvəzində 100 min manatlıq evini girov kimi qoya bilər. Yaxud 500-1000 manatlıq kredit götürürsən, sənə elə bir şəxs zamin durur ki, onun maaşı 2-3 min manatdır. Yəni, bu halda bank artıq tarixçəsi korlanmış müştəriyə kredit verəcək. Nəticədə vətəndaşın kredit tarixçəsi yaxşılaşacaq və artıq başqa banklardan rahat şəkildə kredit əldə etmək mümkün olacaq".

Ekspert vurğulayıb ki, hazırda maliyyə vəziyyətinin düzəlməsinə baxmayaraq kredit tarixçəsi korlandığı üçün banklardan kredit əldə edə bilməyən insanların sayı həddindən artıq çoxdur: "Bununla bağlı mənə də çoxsaylı müraciətlər daxil olur. Düzdür, həmin şəxslərin sayı barədə konkret rəqəm demək çətindir. Amma deyə bilərəm ki, sayları həddindən artıq çoxdur. Hətta mən insanlar tanıyıram ki, onlar aldanıblar. Belə ki, devalvasiya zamanı bəzi banklar müştərilərə bildiriblər ki, siz kreditinizi dolların köhnə kursu ilə ödəsəniz belə, sənədlərdə gecikmə qeyd olunmayacaq. Əksər vətəndaşlar da ödənişi devalvasiyadan əvvəlki kursa uyğun yerinə yetiriblər. Amma banklar verdikləri vədə əməl etməyiblər, sənədlərdə gecikmə kimi qeydiyyat aparıblar. Vətəndaş bundan təkrar hansısa banka kredit üçün müraciət edəndə xəbər tutub. Yəni, belə hallar da olur. Hər bir halda vətəndaş kredit tarixçəsini yaxşılaşdırmaq istəyirsə, ilk növbədə banklara kiçik həcmli kreditlər üçün müraciət etməlidir".

■ **Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Eldəniz Əmirov isə bildirib ki, əvvəlllər kredit tarixçəsi korlanmış vətəndaşların kredit əldə etməsi mümkün deyildi:** "Səhv etmirəmsə, hazırda 3 ildən sonra vətəndaşın adı "qara siyahı"dan silinir və artıq vətəndaş 3 ildən sonra kredit götürə bilər. Əslində banklar krediti vətəndaşın mərkəzləşdirilmiş kredit reyestrindəki məlumatları əsasında verir. Yəni, bank tərəfindən vətəndaşın krediti ödəmə qabiliyyəti, məsuliyyəti və digər faktorlar qiymətləndirilir. Mərkəzləşdirilmiş kredit reyestrində mənfi göstəricisi olan vətəndaş banklar üçün riskli hesab olunur. Heç bir bank da vəsaitini riskləri qiymətləndirmədən verə biləz.

Bundan başqa, vətəndaşın krediti gecikdirməsinə görə "qara siyahı"ya salınmasına müxtəlif cür yanaşılır. Məsələn, bir il ərzində gecikmə neçə ay olub, birbaşa ödəmədən imtina olunubmu, bir ayda gecikmə neçə gün olub və s. Yəni, gecikmənin özünün səviyyələri var. Buna görə düşünürəm ki, məsələn, vətəndaş krediti 10 gün gecikdirdisə, o "qara siyahı"ya dərhal düşmür. Bunun üçün vətəndaşın krediti daha uzunmüddətli gecikdirməsi lazımdır. "Qara siyahı"təcrübəsi bütün dünyada tətbiq olunur. Çünki bu məlumatlar olmadan risklərin qiymətləndirilməsi mümkün deyil".

✍ *Sevinc*

# "Rus sülhməramlıları üçün "separatçı" anlayışı yoxdur"

**G.V. Plexanov adına Rusiya İqtisad Universiteti Politologiya və sosiologiya kafedrasının dosenti, "Rusiya zabitləri" ekspert şurasının üzvü, hərbi politoloq Aleksandr Perenjiyev Ukrayna ətrafındakı son gərginlik, eləcə də Rusiyanın Azərbaycanın Qarabağ torpaqlarındakı rəsmən sülhməramlı sayılan hərbi kontingentinin son 1 il 3 aylıq fəaliyyəti ilə bağlı Hafta.az əməkdaşının bir sıra suallarını cavablandırıb.**



Aleksandr Perenjiyev, "Rusiya zabitləri" ekspert şurasının üzvü, hərbi politoloq

## Müsahib

***- Aleksandr Nikolayeviç, Ukrayna ətrafındakı mövcud gərginliyi necə qiymətləndirirsiniz? Təhlillərinizin son nəticələri hansılardır? Rusiya, həqiqətənmi, Ukraynaya hücum edəcək?***

- Ukrayna ətrafında "Rusiya Ukraynaya hücum edir" hay-küyü ilə ABŞ aşağıdakı hədəfləri güdür: birincisi, tanınmamış LXR və DXR ərazilərində yaşayan etnik rusları və ukraynalıları ukraynalılar və əslində "ukraynalılar" adlandırılan digər etnik ruslarla yenidən döyüşməyə məcbur etmək üçün Donbasda qırğın təşkil etmək. Əslində, söhbət vahid bir xalqın bir hissəsinin digər hissəsinə qarşı vuruşmasından gedir.

**İkinci hədəf.** Rəsmi Vaşinqton və digər Qərb dövlətləri Ukraynanı güclü şəkildə silahlarla doldurur. Bu, təkcə birinci məqsədə nail olmaq üçün deyil, həm də silah və hərbi texnikanın dünya qara silah bazarına tədarükü üçün Ukrayna ərazisində vahid tranzit və paylayıcı baza yaratmaq məqsədilə edilir. Bu yaxınlara qədər belə bir baza rolunu Əfqanıstan uzun illər oynayıb. Burada rəsmi Vaşinqton Kabildə onun nəzarətində olan hökumətin köməyi ilə silahlarını dünya qara bazarında satırdı. Və bir qayda olaraq köhnə, işlədilmiş və silinmiş olan silahları... Əslində, hazırda Ukraynaya da məhz bu cür silahlar verilir.

**Üçüncü hədəf.** Bu, görünməmiş hay-küy altında artıq rəsmi Vaşinqton, NATO və digər müttəfiqlər tərəfindən Rusiyanın Arktika və Uzaq Şərq sərhədlərinə qarşı təcavüz üçün aktiv kəşfiyyat fəaliyyətləri həyata keçirilməyə başlanılır. Bu yerdə Rusiya Müdafiə Nazirliyinin Kuril adalarından birinin yaxınlığında ABŞ sualtı qayığının aşkarlanması ilə bağlı bəyanatını yada salmaq lazımdır. Kalininqrad vilayətinə və Rusiyanın Qara dəniz sahillərinə qarşı da zərbə qrupları yaradılır...

***- Siz hərbi politoloq kimi eyni zamanda müəyyən dərəcədə etnosiyasi konfliktologiya üzrə də mütəxəssissiniz. Bu mənada necə düşünürsünüz, son 8 ildə iki slavyan xalqı - ruslar və ukraynalar arasında, az qala, düşmənçilik həddinə çatan gərginliyin əsl mahiyyəti nədən ibarətdir? Obyektiv və ədalətli danışsaq, bunda Rusiya və Ukrayna hakimiyyətlərinin, eyni zamanda Qərbin, ABŞ-ın günahları nədən ibarətdir?***

- Bu, müstəsna olaraq, ilk növbədə, 2014-cü ildə Ukraynada dövlət çevrilişi həyata keçirmiş, nəticədə millətçi qüvvələrin hakimiyyəti ələ keçirməsinə şərait yaratmış rəsmi Vaşinqtonun günahıdır. Nezalejnayadan (millətçi ruslar bu ifadə ilə daha çox ironik və istehzalı məzmunla müstəqil Ukraynanı adlandırırlar - S.L.) anti-Rusiya yarandı. Ölkə əhalisinin ukraynlaşdırılmasının zorakı kursu aparılır. Ukrayna sakinlərindən Rusiyaya və ruslara nifrət edən bir çox insanlardan formalaşdırırlar və artıq formalaşdırıblar. Rəsmi Kiyev Vaşinqtonun və digər Qərb paytaxtlarının əmrlərini yerinə yetirən hökumətdir. Yeri gəlmişkən, Rusiyaya nifrət ABŞ tərəfindən digər slavyan xalqları - polyaklar, çexlər, bolqarlarda da dəstəklənir.

Yeni Baltikyanı ölkələr, Ukrayna və digər Şərqi Avropa ölkələri timsalında rəsmi Vaşinqton Rusiya ilə Qərbi Avropa arasında "sanitar kordonu" yaratdı. Məhz rəsmi Moskva ilə "Köhnə Avropa" arasında əməkdaşlıq ABŞ üçün ciddi, ilk növbədə, iqtisadi və son nəticədə siyasi çağırışdır. Belə əməkdaşlıq daha bir güc mərkəzi formalaşdırır ki, rəsmi Vaşinqton ona nəinki nəzarət edə bilməyəcək, əksinə, yenidən onunla siyasi-beynəlxalq, iqtisadi və hətta hərbi-siyasi təsir sferasında rəqabətə girməyə məcbur olacaq...

***- Görünür, siz Krımın Rusiya Federasiyasına birləşdirilməsini də ədalətli sayırsınız? Həm hüquqi, həm də tarixi baxımdan?***

- Bəli, bu, ədalətlidir!

Birincisi, krımlıları onlara qarşı açıq repressiyalarından qorumaq lazım idi. Burada qondarma "dostluq qatarı"nı sadalamaq olar: 2014-cü il mayın 2-də Odessada onlarla adamın qeyri-insani yandırılması, Donbass sakinlərinin qətli və onların təhqir olunması... Eyni zamanda, diqqətə çatdırmaq istərdim ki, qondarma milli batalyonlar tərəfindən edam, soyqırımı və digər soyqırımı aktları Donbasda hələ milis və "separatçı" rejimlərin olmadığı 2014-cü ilin mart-aprel ayının əvvəllərində başlayıb. Məhz soyqırımından müdafiə üçün Donbas sakinləri xalq milisləri yaratdılar və DXR və LXR-in yaradıldığını elan etdilər...

İkincisi, Krım SSRİ-nin dağılması zamanı qeyri-qanuni olaraq Ukraynanın tərkibinə daxil olub. İki anlayışı - SSRİ tərkibindəki Ukrayna SSR və müstəqil Ukrayna Respublikasını ayırd etmək lazımdır. Krım o zaman Ukraynanın bir hissəsi ola bilərdi ki, Ukrayna və Rusiyanın özü vahid dövlətin tərkibində olsun. Bir daha xatırlatmaq lazımdır ki, Krım RSFSR-in tərkibində olub və rus və ukrayna xalqları arasında dostluq simvolu kimi Ukrayna SSR-ə verilib!..

**Üçüncüsü.** Krım və Sevastopol xarici müşahidəçilərin nəzarəti altında keçirilmiş ədalətli referendumdan sonra öz əhalisinin azad iradəsinin ifadəsi nəticəsində Rusiyaya qayıdıb. Ona görə də Krımın və Sevastopolun ilhaqı olmayıb. Sadəcə, onların sakinlərinin Rusiya Federasiyasına qayıtmaq arzusu reallaşıb. Eyni zamanda, Rusiya Federasiyasının bu subyektlərinin ərazisində Ukrayna, Krım-tatar, bolqar və digər dillərdən də sərbəst istifadə olunur. Son 7 ildə rəsmi Moskvanın səyləri ilə Krım yarımadası dilənçi və bərbad ərazidən abad əraziyə çevrilməkdədir. Rəsmi Bakının səyi ilə azad edilib məskunlaşdırılan 7 rayon, Şuşa və digərləri kimi!..

***- Rusiyanın rəsmən sülhməramlı sayılan hərbi kontingentinin Qarabağda son bir il 3 aylıq fəaliyyətini necə dəyərləndirirsiniz? Azərbaycan Prezidenti İlham Əliyev ümumilikdə bu kontingentin fəaliyyətindən razıdır. Amma o, öz çıxışlarında tez-tez Azərbaycan xalqını incidən və müəyyən dərəcədə Azərbaycan Respublikasının suverenliyini də təhdid edən bəzi nüanslara da eyham vurur. Məsələn, bu kontingentin ilk komandiri general-leytenant Rüstəm Muradov 2020-ci ilin noyabrında Qarabağda işinə başlayan kimi ilk işi olaraq Xankəndinə gəlib erməni separatçılarının qondarma lideri Arayik Arutyunyanla qucaqlaşaraq görüşüb. Halbuki, həmin Arutyunyan 44 günlük müharibə zamanı Gəncəni ballistik raketlərlə bombalamağı əmr etdiyi üçün Azərbaycan dövləti tərəfindən axtarışa verilmişdir... Yaxud 2021-ci ilin oktyabrında Azərbaycan hərbçilərinin postuna əl qumbarası atan erməni terrorçusu Norayr Mirzoyan sülhməramlılar tərəfindən dərhal Xankəndinə, yəni separatçı rejimə qaytarılıb. Baxmayaraq ki, Azərbaycan Respublikasının Baş Prokuroru tərəfindən bu faktla bağlı cinayət işi başlanıb...***

- Hesab edirəm, Rusiya sülhməramlılarının iştirakı ilə bağlı bütün problemlər 2020-ci ilin noyabrında və 2021-ci ilin yanvarında imzalanmış üçtərəfli münasibətlər çərçivəsində həll edilməlidir və edilir. Rusiya sülhməramlıları Rusiya Müdafiə Nazirliyinə və müəyyən mənada Rusiya Xarici İşlər Nazirliyinə, nəhayət, Rusiya Silahlı Qüvvələrinin Ali Baş Komandanı Vladimir Putinə tabedirlər. Ona görə də bütün bu kimi problemlər dövlət rəhbərləri, xarici siyasət və hərbi idarələr vasitəsilə həll edilməlidir. Eyni zamanda, diqqətinizi ona cəlb edirəm ki, sülhməramlılar öz sülhməramlı missiyasının qaydaları çərçivəsində hərəkət edirlər.

Ona görə də onlar üçün separatçılar anlayışı yoxdur. Bircə anlayış var - yerli sakinlər və yerli rəhbərlik. Məhz bu konsepsiyalar çərçivəsində sülhməramlıların komandanlığının yerli əhali və onların rəhbərliyi ilə qarşılıqlı əlaqəsi həyata keçirilir...

***- Rusiya Federasiyası Müdafiə Nazirliyinin rəsmi internet saytında Rusiya sülhməramlı kontingentinə aid bölmədəki xəritə və xəbərlərdə Azərbaycan Respublikasının şəhər və kəndlərinin adları ölkəmizin müasir rəsmi-inzibati xəritələrinə uyğun olaraq adlanmır. Və sanki işğalçı, separatçı ermənilərin xoşuna gəlmək üçün, demək olar ki, hər gün təhrif edilir. Məsələn, Xankəndi əvəzinə "Stepanakert", Ağdərə-"Mardakert", Xocavənd-"Martuni" və s. yazılır, deyilir. Məgər bu, ədalətlidirmi?***

- Bilirsiniz, qeyd edilən ərazilərdə etnik ermənilər yaşayır. Həmin yaşayış məntəqələrinin sakinlərinin (mən vurğulayıram: bu ərazilərin özlərinin deyil, sakinlərinin) statusu tənzimlənməyib.

Ona görə də sülhməramlı kontingentin xəritələrində sözügedən yaşayış məntəqələri orada yaşayan yerli sakinlərin özlərinin adlandırdığı kimi adlandırılar...

*"Rusiya sülhməramlıları Rusiya Müdafiə Nazirliyinə və müəyyən mənada Rusiya Xarici İşlər Nazirliyinə, nəhayət, Rusiya Silahlı Qüvvələrinin Ali Baş Komandanı Vladimir Putinə tabedirlər*

*Kalininqrad vilayətinə və Rusiyanın Qara dəniz sahillərinə qarşı da zərbə qrupları yaradılır*

✍ **Sultan Laçın**

# YUNESKO-nun Qafqaz səfəri

## Müzakirə



***YUNESKO nümayəndələrinin Azərbaycana və Ermənistana səfəri və tarixi mədəniyyət abidələrinin araşdırılması ilə bağlı məsələ gündəmdədir. Xəbər verildiyi kimi, Azərbaycan Xarici İşlər Nazirliyi Yunesko-nun regiona nümayəndələr göndərməsi ilə bağlı məsələyə açıq yanaşdığını elan edib və "top"un Ermənistan tərəfdə olduğunu bildirib. Maraqlıdır, YUNESKO tək Azərbaycan daxilində olan abidələri yox, Ermənistanda Azərbaycan mədəniyyətinə aid olan abidələrin araşdırılması faktını qəbul edəcəkmi? Bu müstəvidə YUNESKO-dan ədalət gözləmək olarmı?***

**Qasım Hacıyev, Qafqazşünaslıq İnstitutu ermənişünaslıq şöbəsinin müdiri:**



*"Əgər bütün bu hallar bu gün YUNESKO tərəfindən yoxlanılıb ədalətli prinsiplə siyahıya alınarsa, bunu yalnız alqışlamaq olar"*

- Azərbaycan tarixi həqiqətlərinin dünyaya çatdırılması üçün yeni şərait yaranıb. Bu, fevralın 4-də Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı, Fransa respublikasının prezidentləri və Ermənistan baş naziri ilə onlayn görüşdə özünü göstərdi. Həmin toplantıda Prezident məlumat verdi ki, Azərbaycanın indiki Ermənistan ərazilərində tarixi və mədəniyyət abidələri var və onların çoxu dağıdılıb, məhv edilib. Əvvəllər Avropa, beynəlxalq təşkilatlar belə fikirləri, şikayətləri Azərbaycandan eşidəndə qulaqardına vururdular. Azərbaycan dövlət başçısının təkidli tələbindən sonra YUNESKO buna müsbət cavab verməli oldu. Görüşdən sonra müraciət olundu ki, həmin ərazilərdəki tarixi abidələr öyrənilsin, dünyanın mədəni irsini qoruyan böyük bir təşkilatın bundan xəbəri olsun. İndiyə qədər beynəlxalq təşkilatlar ermənilərin işğal siyasətini və törətdikləri cinayət əməllərini bilsələr də beynəlxalq təşkilatlar buna məhəl qoymurdu, göz yumurdu.

YUNESKO kimi beynəlxalq təşkilatın buna münasibət bildirməsi çox mütərəqqidir. Beləliklə, YUNESKO-dan gələn nümayəndələrə siyahılar veriləcək, abidələr barədə yazdıqlarımızı, bildiklərimizi toplayaraq əsas fikrin formalaşmasına şərait yaradacağıq. İndiki Ermənistan ərazisində olan Qərbi Azərbaycan toponimləri hamısı ya təhrif olunub, dəyişdirilib, ya da erməniləşdirilib. Ötən əsrdə əhalisi 2-3 dəfə deportasiya olunmuş xalqın mədəni irsi dağıdılıb. Bu günə qədər Qərbi Azərbaycanda yüzlərlə tarixi abidələrimiz, qəbiristanlıqlar, Azərbaycan xalqının yaratdığı mədəni irs, məscidlər, məhv edilib. Dağıdılmayan məscidlər isə başqa ölkələrə - İrana, Türkmənistana yalan məlumat vermək üçün saxlanılıb. Biz özümüz dəfələrlə ermənilərin Şuşada yalançı arxeolji qazıntılar apamaları, yalançı Tiqranakert tapdıqları haqqında, eləcə də Xankəndi ətrafındakı qazıntılarda erməni izləri aşkarlamaları barədə olan yalanlarına qarşı çıxış edərək dəfələrlə beynəlxalq qurumlara müraciət etmişik. Lakin heç bir münasibət göstərilməyib. Əgər bütün bu hallar bu gün YUNESKO tərəfindən yoxlanılıb ədalətli prinsiplə siyahıya alınarsa, bunu yalnız alqışlamaq olar.

**Qabil Hüseynli, politoloq:**



*"YUNESKO nümayəndələri təkcə dini abidələrin araşdırmasını edəcəklərsə, gəlməsələr daha yaxşıdır"*

- Azərbaycan Ermənistanın Gəncəyə və Bərdəyə atdığı ballistik raketlərin dağıntılarından sonra və işğaldan azad olunmuş rayonların monitorinqi ilə bağlı dəfələrlə təşkilata dəvət göndərsə də, heç bir cavab olmayıb. Bu gün Avropa Birliyinin təşəbbüsü ilə YUNESKO-nun Ermənistana və Azərbaycana tək dağıdılmış dini abidələrin monitorinqi ilə bağlı səfər etməsi birmənalı qarşılanmır. Beynəlxalq təşkilatların bu səfərdə məhz dini abidələrin araşdırılması üzərində fokslanması düzgün deyil. Bəs niyə talan olunmuş, daşı-daş üstündə qalmayan 7 rayonun ərazilərinin monitorinqi keçirilməsin? Kəlbəcərin kökü kəsilən palıd meşəliklərinin, Zəngilanın Çinar meşəliklərinin məhv edilməsi, bütövlükdə bölgənin fauna və florasına vurulan böyük zərər haqqında niyə hesabat hazırlamasınlar?! İşğal zamanı ölkədə 69 məscid yerlə-yeksan edilib. Dağıdılan məscidlər, qəbiristanlıqlar, hətta ermənilərin vəfat edənlərin nəşlərinin dişlərində qızıl axtarılması halları niyə hesabata salınmamalıdır. Bütövlükdə insanlıqdan, bəşəri dəyərlərdən uzaq olan hallarla bağlı niyə ətraflı hesabat hazırlanmasın?! Kəlbəcərdəki alban abidəsi Azərbayacanın əraziləri daxilindədir, o ölkəmizdə alban xalqının qalıqları olan udinlər tərəfindən idarə edilir. Bu, Laçındakı Ağdaban kilsəsinə də aiddir.

Ermənilərin Bakı şəhərinin mərkəzində olan kilsəsi tam təmir edilərək həm ibadətə, həm də digər baxışlara açıqdır. Bizim kilsələrlə bağlı belə bir qayğımız yoxdur. Sadəcə olaraq beynəlxalq qurumların məsələləri saxtalaşdırıb təzavüzkarın xeyrinə, onun baxışına uyğun yönləndirmək cəhdləri gözdən yayına bilməz. YUNESKO nümayəndələri təkcə dini abidələrin araşdırmasını edəcəklərsə, gəlməsələr daha yaxşıdır. Gəlib təcavüzkarın suveren Azərbaycan torpaqlarında törətdiyi amansız dağıntıların, dini-müqəddəs yerlərimizin monitorioqini aparmayacaqlarsa, buna monitoring demək olmaz. Azərbaycan tərəfi gələnləri təlimatlandıraraq bildirməlidir ki, monitorinq ciddi xarakter daşımalıdır. Bütövlükdə azad olunmuş rayonlarda dağıdılmış mükkələrin, maddi- mədəniyyət nümunələrinin, fauna -floranın monitorinqini aparmaqla bu məsələ ətrafında dünyaya məlumat verəcəklərsə buyursunlar. Yox gəlib qaşınmayan yerdən qan çıxarıb, yalançı subyektiv mülahizələrlə məlumatlar hazırlayacaqlarsa, bu regiona bu heç bir pozitivlik gətirməyəcək. Bu beynəlxalq təşkilatın nüfuzuna da kölgə salacaq.

**Faiq İsmayılov, İşğal Olunmuş Ərazilərdəki Tarix və Mədəniyyət Abidələrinin Müdafiə Təşkilatı İctimai Birliyinin sədri:**



*"Yunesko Ermənistan ərazisində yerləşən tarixi və mədəniyyət abidələrimizin mövcudluğu araşdırılmalıdır"*

- Ermənistan işğal etdikləri Azərbayan ərazilərində xiristianlıq dövrü və xiristianlığa qədər olan tarixi mədəniyyət abidələrini erməni kilsəsi və ya erməni monastrı kimi dünyaya təqdim eliyir. Halbu ki, ermənilərin barmaqla sayıla bilən kilsələrindən biri Bakıdadır ki, o da yüksək səviyyədə qorunur. Eyni zamanda ermənilərin Şuşa şəhərində "Qazançı" adlandırdığı kilsəsi də yoxdur. Bu, rus-provaslav kilsəsidir. Çar Rusiyası Azərbaycan ərazilərini işğal eliyəndə regionlarda yerləşdirdikləri əsgərlər üçün ibadət yerləri də hazırlamaq istəyirdilər. Şuşa şəhərində xanlığın divanxanası üzərində bir zəng qurdular ki, əsgərlər orda ibadət etsinlər. Sonralar sovet dövründə bu ibadət yeri rus-provoslav kilsəsi formasında inşa olunub. Burada ermənilərə, erməniçiliyə aid heç nə yoxdur. Yunesko Ermənistan ərazisində yerləşən tarixi və mədəniyyət abidələrimizin mövcudluğu araşdırılmalıdır. Burada bazillikalar, məbədlər, alban dövrü abidələri, yəni xiristian dövrünə qədər xeyli abidələr mövcudur. Eyni zamanda İslam dövrü abidələri - məscidlər, türbələr, qəbiristanlıqlar, qəbirüstü abidələr və sair var. Eramızdan əvvəl I-II minilliklərdən bu yana həmin ərazilərdə mövcud olan bütün tarix və mədəniyyət abidələri Oğuz Mədəniyyəti, Alban dövrü mədəniyyəti, İslam dövrü mədəniyyətini əhatə edir. Ermənilər bu ərazilərdə sıx halda yaşamadıqları üçün onların mədəniyyətini əks etdirən heç bir şey yoxdur. YUNESKO-nun xoşməramlı missiyasının Azərbaycana və Ermənistana gəlişinə inanmıram. 30 ilə yaxın müddətdə Azərbaycan əraziləri Ermənistanın işğalı altında qalanda ordakı tarix və mədəniyyət abidələrinin vəziyyətini yoxlamaq üçün monitorqin qruplarının yaradılması üçün dəfələrlə YUNESKO-ya müraciət elədik. Müraciətlərimiz hamısı cavabsız qaldı və yaxud da rədd edildi. YUNESKO hətta ermənilərin Moskvadan durub etdiyi şantajına gedərək Bakıda və işğaldan azad olunmuş ərazilərdə erməni abidələrinin azərbaycanlılar tərəfindən dağıdılması təhlükəsini bəhbəhlə qəbul etdi. Halbuki, o adları çəkilən abidələrin heç birində erməni izi, erməni mədəniyyətinə aid heç nə yoxdur. Bu missiya YUNESKO tərəfindən Azərbaycana və Ermənistana göndərilərsə çox müsbət hal olar. Onun fikrincə, YUNESKO nümayəndələri ölkəmizə gələrsə biz Ermənistan ərazilərindəki tarix və mədəniyyət abidələrimizin, hətta alban dövrü xiristian abidələrinin ermənilər tərəfindən necə dağıdıldığını, qəddarlıqla yox edildiyini nümayiş etdirə bilərik.

✍ **Tahirə**

# Müəllimlərin sertifikasiyası bu il baş tuta bilər

## Layihə

***Uzun zamandır ki, müəllimlər üçün sertifikasiyanın keçirilməsi məsələsi müzakirə mövzusudur. Təhsil Nazirliyindən verilən məlumata görə, prosesin bu il reallaşması nəzərdə tutulub. Belə ki, Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırovun sözlərinə görə, sertifikasiya imtahanının müəllimlərin işə qəbulu müsabiqəsindən sonrakı mərhələdə keçirilməsi nəzərdə tutulur: "Bu il müəllimlər üçün sertifikasiya imtahanlarının keçirilməsi nəzərdə tutulur. Bunun hansı kontingent üçün keçirilməsi barədə qərar verilməyib. Hər bir halda bu prosesin başlanması barədə qəflətən və anidən qərarlar verilməyəcək, əvvəlcədən ictimaiyyətə məlumat veriləcək".***



### 5 il müddətində pedaqoji fəaliyyətlə məşğul ola bilərlər

**Məlumat üçün bildirək ki, Nazirlər Kabinetinin 2020-ci ildə təsdiqlədiyi qaydalara görə, sertifikatlaşdırmanın sualları təhsilverənlərin tutduğu vəzifə üzrə əmək funksiyasına, peşəsinə (ixtisasına) və tədris etdiyi fənnə aid olmaqla tərtib edilir.**

Sertifikatlaşdırmanın test mərhələsində təhsilverənlərə tədris etdiyi fənn üzrə ümumtəhsil proqramlarına, tədris metodikasına (fənnin tədrisi metodikası sahəsində yeniliklər, pedaqoji prosesin təşkili prinsipləri, təlim fəaliyyətinin planlaşdırılması, təlimin təşkilinə verilən tələblər, bilik və bacarıqların qiymətləndirilməsi metodları, qiymətləndirmənin növləri və məqsədləri) və təlim strategiyalarına (müasir təlim metodları və üsulları, fəal-interaktiv təlim texnologiyaları, interaktiv dərsin mərhələləri və ona verilən tələblər, kurikulumun mahiyyəti və məzmunu, innovativ pedaqoji fəaliyyətin xüsusiyyətləri) aid 60 sual təqdim edilir.Test mərhələsi kompüterdə elektron qaydada həyata keçirilir.

Proqram təminatı hər bir təhsilverənə fərdi test variantı təqdim edir. Sertifikatlaşdırmanın test mərhələsinə 120 dəqiqə vaxt ayrılır. Bu zaman fasilə verilmir.Test mərhələsində hər bir suala düzgün cavab 1 balla qiymətləndirilir. Səhv cavablar və ya sualın cavabsız qoyulması 0 bala bərabər tutulur və düzgün cavablara təsir göstərmir. Sertifikatlaşdırmanın test mərhələsinin nəticələri üzrə balların hesablanması avtomatlaşdırılmış rejimdə proqram təminatı vasitəsilə həyata keçirilir və təhsilverənin nəticələri test mərhələsi başa çatdıqdan dərhal sonra ona elan edilir. Əlilliyi olan şəxslərin sertifikatlaşdırmanın test mərhələsində iştirakının təmin edilməsi üçün əlverişli şərait yaradılır.

Həmçinin I dərəcə gözdən əlilliyi olan təhsilverənlərə fərdi nəzarətçi təyin edilir və onlar üçün test mərhələsinin davamətmə müddəti 60 dəqiqə artırılır. Sertifikatlaşdırmanın test mərhələsində azı 30 bal toplamış təhsilverənlər sertifikatlaşdırmanın müsahibə mərhələsinə buraxılırlar. Müsahibə mərhələsində hər bir təhsilverənə 20 dəqiqə vaxt ayrılır. Sertifikatlaşdırmanın müsahibə mərhələsində azı 20 bal toplamış təhsilverənlər həmin mərhələdən keçmiş hesab edilirlər. Sertifikatlaşdırmadan keçmiş müəllimlər 5 il müddətində təhsil müəssisəsində pedaqoji fəaliyyətlə məşğul ola bilərlər.

> *"ABŞ-ın bir neçə ştatında 5-7 ildən bir müəllimlər sertifikasiyadan keçirilir"*

### Beynəlxalq təcrübə nə deyir?

**Qeyd edək ki, pedaqoji fəaliyyətlə məşğul olanlanların sertifikatlaşdırılması təcrübəsi müxtəlif ölkələrdə də mövcuddur. Məsələn, qonşu Rusiyada pedaqoji kadrların peşəkar standartına yönəldilmiş sertifikatlaşdırılma sisteminin tətbiqində xarici təcrübədən fəal istifadə olunur.** Rusiyada attestasiyanın əsas vəzifələri kimi pedaqoji işçilərin ixtisas səviyyəsinin, onların metodoloji mədəniyyətinin, şəxsi peşə inkişafının, məqsədyönlü, fasiləsiz yüksəldilməsi, onlarda müasir pedaqoji texnologiyalardan istifadənin təşviqi, pedaqoji əməyin səmərəliliyinin və keyfiyyətinin artırılması, pedaqoji işçilərin potensial imkanlarından istifadə perspektivlərinin müəyyənləşdirilməsi və s. müəyyən olunub.

ABŞ-da müəllimlərin sertifikatlaşmasını milli standartlar üzrə xüsusi təşkilatlar təşkil edir. Bununla bağlı iki aparıcı təşkilat - Pedaqoqun Peşəkar Standartları üzrə Milli Şurası (National Board for Professional Teaching Standards - NBPTS) və Yeni Müəllimləri Qiymətləndirmə və Dəstəkləmə Regionlararası Konsorsiumu (Interstate New Teacher Assessment and Support Consortium - INTASC) birgə səylərlə müəllimlərin milli standartlarını hazırlayıb.



**Asif Cahangirov,**
təhsil eksperti,
əməkdar müəllim

Müxtəlif ştatlarda standartlar və onlara uyğun səriştələrin sayı fərqlidir. Ayrı-ayrı ştatlarda peşəkar inkişaf səviyyələri də fərqli şəkildə müəyyənləşdirilir. NBPTS sertifikatını məktəbdə ən azı 3 il tam iş təcrübəsi olan müəllimlər əldə edə bilərlər. Sertifikatlaşdırma 25 fənn sahəsi və 7 yaş kateqoriyası üzrə aparılır. Sertifikat 5-10 il müddətində qüvvədədir. Müəyyən edilmiş müddət başa çatdıqdan sonra onu yeniləmək olar. Yaponiyada isə sertifikasiya prosesində üç səviyyəli sınaq tətbiq olunur. Birincisi, pedaqoji nəzəriyyə üzrə test, ikincisi konkret fənn materialını dərindən bilmək, metodik bacarıq və səriştələr, üçüncüsü, namizədlə müsahibə, o cümlədən müəllimin kommunikativ səriştələrinin, komandada işləmək bacarığının, peşəkar bacarıqlarının, dəyərli mövqelərinin qiymətləndirilməsindən ibarətdir. Bu model məktəblərdə işləmək üçün müəllimlərin seçilməsini nəzərdə tutur və inzibati ərazi vahidləri rəhbərləri tərəfindən aparılır.

Almaniyada isə müəllimlik statusu almaq üçün iki mərhələdən keçmək lazımdır. Birincisi, universitetdə təhsil almaq və ilk dövlət imtahanından keçmək, ikincisi, təhsil müəssisəsində təcrübə və ikinci dövlət imtahanından keçmək vacibdir. Məzunların pedaqoji hazırlığını gənc müəllimlərlə işləməkdə mühüm rol oynayan pedaqoji təhsil mərkəzi həyata keçirir. Burada məzunlar dövlət imtahanlarını verir, təcrübə dövründə tam dəstək alır, nəticədə iki prosedurdan ibarət imtahan verirlər: tədris olunan iki fəndən hər biri üzrə bir açıq dərs, tədqiqat və müstəqil yazılı işi.

Əgər iddiaçı iki dərs üçün kifayət qədər bal toplaya bilməsə, onda yazılı sınaq işinə və kollokviuma icazə verilmir. Kollokvium müəllim tərəfindən seçilən mövzuda müzakirə, fikir mübadiləsi formatında keçirilir. Bu imtahandan uğurla keçmək üçün namizədlər pedaqoji təhsil mərkəzində hazırlıq kursuna cəlb olunurlar.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

### Bu sahədə rəqabət artacaq

■ **Məsələyə münasibət bildirən təhsil eksperti, əməkdar müəllim Asif Cahangirov hafta.az-a bildirib ki, da sertifikatlaşdırma prosesi keyfiyyətin yüksəlməsinə müsbət təsir göstərə bilər. Onun sözlərinə görə, müəllimlərin sertifikasiyası konseptual baxımdan tamamilə fərqli prosesdir:**

"Təhsil daim inkişaf edən sahədir. Bu sistemdə çalışan müəllim müasir tendensiyaları anlamalı, qəbul etməli və ona uyğun olaraq öz peşəkarlıq səviyyəsini yüksəltməlidir ki, müasir çağırışlara cavab verə bilsin. Sertifikasiya zamanı hər bir müəllim müstəqil qiymətləndirilmədən keçirilir, onun biliyi, səriştəsi müəyyən olunmuş qaydada dəyərləndirilir və konkret parametrlər əsasında aparılan qiymətləndirmə nəticəsində onun pedaqoji fəaliyyəti müəyyənləşdirilir. Bu, beynəlxalq praktikada da var. ABŞ-ın bir neçə ştatında 5-7 ildən bir müəllimlər sertifikasiyadan keçirilir. O cümlədən qonşu Gürcüstanda ingilis dilini mükəmməl bilən, imtahan nəticələri yaxşı olan müəllimlər daha çox əməkhaqqı alırlar. Düşünürəm ki, bu sistemi bizdə də tətbiq edilsə, əla nəticələr əldə etmək olar. Bunun məqsədi də ildən-ilə inkişaf edən təhsildə müəllimin zəmanəyə, müasir təhsilə nə dərəcədə uyğun olmasını yoxlamaqdır. Hesab edirəm ki, sertifikasiya təhsilin inkişafına yönəlmiş addım olacaq.

Belə ki, bu, ilk növbədə müəllimlərin hazırlıq səviyyəsini və savadını müəyyən edir. Sertifikatlaşma nəticəsində müəllim müəyyən dövr üçün müasir tələblərə cavab verəcək və istənilən məktəbdə işləmək üçün müsabiqələrə qoşula biləcək. Müəllimlik dünyada nüfuzlu sahələrdən biridir. Amma bu sahədə əməkhaqqı azdır. Ümumiyyətlə, müəllimlər dünyanın bir çox ölkələrində az əməkhaqqı alırlar. Düşünürəm ki, bu sahədə çalışan insan yaxşı əməkhaqqı almalıdır ki, işini də keyfiyyətli görə bilsin, gördüyü işdən zövq alsın. Sertifikatlaşma imkan verəcək ki, imtahanda yaxşı nəticə göstərən müəllimlər yüksək əməkhaqqı alsınlar. Bu təklif həm də müəllimlər arasında rəqabəti artıracaq".

✍ **Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ 2021-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu yaşa görə pensiya təyin edildikdən sonra azı 6 il işləmiş və işləməkdə davam edən 1307 şəxsin pensiyasını yenidən hesablayaraq artırıb. "Əmək pensiyaları haqqında" Qanuna əsasən, şəxs ona yaşa görə pensiya təyin olunduğu gündən sonra işləməkdə davam edərsə, hər 6 ildən (72 aydan) bir onun hesabında toplanmış sosial sığorta haqqı 72-yə bölünərək pensiyasına əlavə olunur.

■ Fevralın 17-də növbəti Ümrə ziyarəti baş tutacaq. Bunu APA-ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin Xarici əlaqələr şöbəsinin müdiri Vüsal Cahangiri bildirib. Onun sözlərinə görə, ziyarət fevralın 24-nə qədər davam edəcək. Şöbə müdiri mart ayında nəzərdə tutulan Ümrə ziyarətlərinin də tarixini açıqlayıb. O qeyd edib ki, gələn ay 10-17, 19-26 və 24-31 mart tarixlərində Ümrə ziyarətlərinin həyata keçirilməsi nəzərdə tutulub.



■ Kreml Ukraynanın separatçı Donbas respublikalarının sakinlərinə Rusiya vətəndaşlığının verilməsini pozuntu hesab etmir. Bunu Kremlin mətbuat katibi Dmitri Peskov bildirib. Onun sözlərinə görə, "Luqansk və Donetsk Xalq Respublikaları"nın sakinlərinə Rusiya pasportlarının verilməsi Minsk razılaşmalarının pozulması deyil: "Bu cür hallar bütün dünyada baş verir".

■ ABŞ şirkətləri artıq azad olunmuş ərazilərdə fəaliyyət göstərir. Bu barədə ABŞ-ın Azərbaycandakı səfiri Li Litzenberqer ABŞ-Azərbaycan diplomatik münasibətlərinin 30 illiyinə həsr olunmuş dəyirmi masada deyib.Onun sözlərinə görə, daha çox ABŞ şirkətinin sözügedən ərazilərin bərpa prosesində iştirak etməsi arzuedilləndir. "Mən daha çox ABŞ şirkətini azad olunmuş ərazilərdə görmək istərdim", - diplomat bildirib.



■ Kriştiano Ronaldo klub karyerasında 689-cu qolu vurub. Portuqaliyalı ulduz "Mançester Yunayted"in "Brayton"la matçında fərqlənib. Ronaldo bununla da əfsanəvi braziliyalı Romarioya məxsus dünya rekordunu təkrarlayıb. Son qollarını 2007-ci ildə vuran sambaçının göstəricisi 15 ildən sonra təkrarlanıb. Qeyd edək ki, Kriştiano "Sportinq"də 5, "Mançester Yunayted"də 133, "Real"da 450, "Yuventus"da 101 qola secinib.

■ Füzuli şəhərində yaşayış məhəlləsinin inşası çərçivəsində tikiləcək çoxmənzilli binaların layihə-smeta sənədlərinin hazırlanması yaxın zamanda başa çatdırılacaq. Mənzil İnşaatı Dövlət Agentliyindən hafta.az-a verilən məlumata görə, sənədlər dövlət ekspertizasından keçdikdən sonra tikinti işlərinin yerinə yetirilməsi üçün açıq tenderlər elan ediləcək. Hazırda yaşayış məhəlləsinin ərazisinin şaquli planlaşdırması üçün açıq tender elan olunub.

■ Ermənistan Baş Prokurorluğu ölkə vətəndaşının Rusiyadan Azərbaycana deportasiyasının qarşısını alıb. Azərbaycanda doğulmuş erməni Rusiyada inzibati qaydaları pozub, buna görə onun ölkədən deportasiyası barədə qərar verilib. Məhkəmə qərarında səhvən onun Azərbaycan vətəndaşı kimi göstərilməsinə görə, Ermənistan vətəndaşının Bakıya deportasiyası riski yaranıb. Ermənistan tərəfinin müraciətindən sonra Rusiya tərəfi qərara dəyişiklik edib və o, Ermənistana deportasiya edilib.

# Müdafiə Nazirliyində həbslər



**"Azərbaycan Respublikasının təhlükəsizliyinin təminində mühüm rola malik Müdafiə Nazirliyində, xüsusilə külli miqdarda mənimsəmə faktlarının aşkarlanması cəmiyyətdə birmənalı qarşılanmadı.**

Xəbər veridiyi kimi, DTX Müdafiə Nazirliyində əməliyyat keçirib, bir neçə vəzifəli şəxs həbs edilib. Maliyyə Nazirliyinin Maliyyə İdarəsinin rəisi polkovnik Rafael Xəlilov, Quru Qoşunlarının maliyyə şöbəsinin rəisi Bayram Bayramov, "N" saylı hərbi hissənin maliyyə şöbəsinin rəisi Fərahim Sərkərov və nazirliyin zabiti Vüsal Əlizadə saxlanılıblar. Bakı Hərbi Məhkəməsinin qərarı ilə hər biri barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib, istintaq davam edir.

> *"Rüşvətə bulaşmış və ya ona meyilli zabitlər kütləvi olaraq ordu sıralarından uzaqlaşdırılmalıdır"*

■ **Bu barədə hafta.az-a danışan hərbi ekspert Ruslan İmamquliyev hesab edir ki, Müdafiə Nazirliyinin mərkəzində belə halların baş verməsi ortaya bir çox suallar çıxarır.** Onun fikrincə, bütün hallarda cinayətkarlar kimliyindən asılı olmayaraq ifşa edilməlidir. "Müdafiə Nazirliyində rüşvətə bulaşmış və ya ona meyilli zabitlər sərt şəkildə cəzalandırılıb, kütləvi olaraq ordu sıralarından uzaqlaşdırılmalı və köklü islahatlara gedilməlidir. Bu mühitdən uzaqlaşa bilmək üçün sözün həqiqi mənasında dövlətini sevən, hərbçi şərəfini uca tutan mükəmməl kadrlardan ibarət qüdrətli orduya daim ehtiyacımız olacaq".

✍ **Tahirə**

# "Microsoft Teams" tətbiqində heç bir nasazlıq yoxdur"

**Əldə etdiyimiz məlumata görə, pandemiya ilə bağlı birhəftəlik onlayn tədrisə keçirilən bəzi siniflər "Microsoft Teams" proqramı işləmədiyindən dərsləri "Zoom" tətbiqi üzərindən davam etdirirlər. Yoluxmaların bu qədər çoxaldığı bir dövrdə qapanmalara gedilməməsinə səbəb kimi, "Microsoft Teams" tətbiqinin fəaliyyətində yaranan nasazlıq göstərilir.**



***Bu iddialar nə dərəcədə doğrudur?***

Sorğumuza Təhsil Nazirliyindən cavab ala bilməsək də, təhsil eksperti Kamran Əsədov söylədi ki, "Microsoft Teams" tətbiqinin istifadəsində heç bir nasazlıq yoxdur:

"Bu fikir çaşqınlıq yaratmaq məqsədilə müəyyən şəxslər tərəfindən ortalığa atılıb. Bilirsiniz ki, pandemiya ilə bağlı dərslərin bağlanma ehtimalı bir qədər artıb. Elə bu səbəbdən, insanlar arasında xof yaradırlar ki, guya "teams" proqramı işləmir, dərslər onlayn keçirilə bilməyəcək".

Yaxın zamanlarda məktəblərin məsafədən tədrisə keçiriləcəyi xəbərlərinə gəldikdə isə ekspert hesab edir ki, belə hal, hələ ki, gözlənilmir: "Səhiyyə Nazirliyinin son açıqlamasına əsasən faktiki istifadə olunan çarpayılar və aktiv xəstə sayı məhdudiyyətlərin qoyulmasına səbəb deyil. Yoluxma sayındakı kəskin artım 2-3 həftə də bu cür davam edərsə, məktəblərin bağlanması mümkün ola bilər. Hazırda koronavirusun müalicəsi həyata keçirilən tibb müəssisələrində çarpayıların 20%-i tutulub. Göstəricilər 70-80%-ə çatdıqdan sonra müəyyən məhdudiyyətlər tətbiq oluna bilər. Məktəblər bağlanacağı təqdirdə, "Microsoft Teams" tətbiqindən rahatlıqla istifadə etmək mümkün olacaq".

✍ **Banu**

# Putin Ukraynada qalib olsa...

## Müsahib

**_Çağdaş dövrümüzün xaotik informasiya burulğanında Rusiya-Ukrayna gərginliyi o dərəcədə qəliz xarakter alıb ki, nə baş verəcəyini söyləmək çətindir. Sözsüz ki, iki böyük ölkənin toqquşması və bunun da, ehtimal ki, NATO-Rusiya müharibəsinə gətirib çıxarması Azərbaycana da təsirsiz ötüşməyəcək bir prosesdir. Siyasi elmlər doktoru, politoloq Cümşüd Nuriyev hafta.az-a növbəti müsahibəsində məhz bəhs etdiyimiz mövzu ilə bağlı gəldiyi son nəticələrdən danışıb._**

**_- Cümşüd bəy, Ukrayna ətrafındakı gərginliklə bağlı gəldiyiniz son nəticələr nədən ibarətdir? Doğrudanmı, Rusiya Ukraynaya hücum edəcək?_**

- Hələ Zelenski hakimiyyətə yenicə gələndə demişdim ki, Ukrayna üçün çox ağır bir dönəm başlayır. Adətən, şoumenlər siyasətə gələndə artıq onların müddəti bitir. Adam 4 ildən sonra yalnız indi başa düşür ki, ciddi bir məsələ ilə qarşılaşıb.

Qərblə münasibətlər qurulmasının əleyhinə deyiləm. Gərək Zelenski digər yenicə müstəqillik qazanmış dövlətlərin Qərbə həddindən artıq meyil etmələrindən sonrakı talelərinə baxaydı.

Qərbdə, xüsusən Qərbi Avropanın siyasət aləmində mənfi xüsusiyyət odur ki, etibarsız tərəfdaşdırlar. Yəni fikirlərini çox tez-tez dəyişirlər. Rusiya isə müharibə etmək istəyir. Daha doğrusu, buna məcburdur. General-leytenant Sobolevin başçılığı ilə bir qrup tanınmış yüksəkrütbəli hərbçi, hərbi elitanın böyük bir hissəsi Putinin əleyhinə çıxışlar etməyə başlayıb. Onlar hesablayıblar ki, Putin hakimiyyətə gələndən bəri Rusiyadan, təxminən, 20 trilyon rubl, yəni 3 trilyon dollar xaricə çıxarılıb. Üstəlik, Putinin ətrafındakı əsas vəzifə postlarında bir nəfər də rus yoxdur, əksəriyyəti alman və yəhudidir. Əvəzində böyük şəhərləri qismən istisna olmaqla əyalətlərdə rusların çoxu ağır iqtisadi-sosial durumda yaşayır. Hesablanıb ki, həmin 3 trilyon dollara 147 milyonluq Rusiya əhalisinin hər birinə bir ikimərtəbəli ev tikmək olar. Dünya resurslarının 21 faizinin cəmləndiyi bir ölkənin gəliri, sərvətləri müqabilində minimum pensiya 3 min dollar olmalıdır. Bir sözlə, Rusiyada sosial durum gündən-günə gərginləşdiyindən kütləvi etiraz təhlükəsi böyükdür. Odur ki, xalqın diqqətini əsas məsələlərdən yayındırmaq üçün müharibə etmək Kremlə sərf edir. Rusiya savaşa başlamağa cürət etmir. Putin onsuz da Krımı qanunsuz olaraq ilhaq etdiyini bilir. İstənilən vaxtı bu məsələ beynəlxalq səviyyədə ciddi şəkildə qaldırıla bilər. Zelenski isə nə etməli olduğunu anlamır. O, Azərbaycanın təcrübəsindən nümunə götürərək, heç olmasa, Luqanskı azad etməlidir ki, dünya onun yanında dursun.

Deməli, belə çıxır ki, müharibə faktoru Ukrayna üçün məcburidir, Rusiya üçün isə qaçılmazdır. Rəsmi Kiyevi savaşa məcbur edirlər. Xüsusən bu saat anqlosakslara müharibə çox lazımdır. Britaniya maraqlıdır ki, iqtisadi durumu getdikcə gərginləşir. Fransa martda prezident seçkiləri gözlənildiyindən Ukrayna savaşında maraqlıdır. ABŞ-a isə 4 ailənin əlində olan dolların düşmə ehtimalı çox olduğundan və avro ilə bacarmadıqlarından Avropanı müharibə vəziyyətinə salmaq istəyir ki, avro qiymətdən düşsün. Digər tərəfdən, Ukraynada müharibə başlayacağı halda Pentaqon öz köhnəlmiş silahlarını bu ölkəyə satacaq. Üstəlik, ABŞ Ukraynanın qərb hissəsini tamamilə katolikləşdirəcək. Həmçinin Rusiyanı parçalamaq şansı artacaq. Bir sözlə, Ağ ev Ukrayna “gülləsi” ilə 4-5 “dovşan” vurmaq niyyətindədir...

**_- Rusiyanın gerçəkdən yaxın gələcəkdə parçalanması mümkündürmü?_**

- Doğrudan da Rusiyanı parçalanmaq ehtimalı çox böyüyüb. Onun tərəfdaşı hesab edilən rəsmi Pekin də bunu hiss etdirir. Çinə son səfəri zamanı həmin ölkənin lideri Si Tsinpin Putini çox aşağıladı. Görüş mərasimində Sin tərpənmədən yerində durdu və Rusiya Prezidenti ona çatanda bir addım geri çəkildi və əlini də uzatmadı, sadəcə, işarə etdi ki, yanımda dur. Bundan əvvəl isə yanvar ayında Çin lideri Rusiyanın xəbəri olmadan videoformatda Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Tacikistan liderləri ilə görüş keçirdi. Çin Kremlin ayağının altını daha dərindən qazmağa başlayıb. Bu baxımdan Rusiyanın Ukrayna ilə müharibəyə girməsi Çinin də marağındadır. Si Tsinpin Avropaya mesaj verdi ki, baxın, mən Putini aşağıladım.

**_- Bəzi analitiklər belə fikir irəli sürür ki, Rusiyanın parçalanması Qərbə və elə türk, müsəlman dünyasına da sərf etmir. Ona görə ki, bu ölkə guya Çinin Avropaya və türk dünyasına gələcək ekspansiyasının qarşısını alır..._**

### ...bu, Qarabağın yenidən əlimizdən çıxması deməkdir

- Əvvəla, Rusiya Çinin inkişafının, eləcə də dünya, o cümlədən Avropadakı qlobal proseslərə müdaxiləsinin qarşını ala bilmir. Pekinin “Bir kəməl-bir yol” layihəsinin qarşısının Rusiya tərəfindən Qazaxıstan və Orta Asiyada alınması cəhdi uğursuzluğa düçar oldu. Belə ki, Putini qoşunlarını Qazaxıstandan çıxarmağa məhz Çin və Türkiyə məcbur etdi. İş ondadır ki, Rusiyanın Sibir torpaqları Çinə o qədər də lazım deyil, çünki çinlilər orada yaşaya bilməz. Digər tərəfdən, Avropa Rusiyanın parçalanmasını istəməsə də, Britaniya və ABŞ istəyir. Anqlosakslar nə zaman nəyi istəyiblərsə, ona nail olublar. Bu parçalanma əslində bizə, türklərə də sərf edir. Turanın qurulmasına ən böyük maneçilik göstərən məhz elə Rusiyadır. Vaxtilə Turan da olub, İran da olub və Çin üçün ciddi problem yaratmayıb. Çin bunu çox gözəl bilir. Bu, Rusiyanın təbliğ etdiyi ideyadır ki, Qərb bizim ölkəni parçalamaq istəmir, çünki Çinin təcavüzünün qarşısını ala bilməyəcək. Əslində, ABŞ bunu istəyir. Mən Amerika analitiklərinin layihə-proqnozlarına baxmışam: Rusiyanın parçalanması nəticəsində 6 türk dövləti yaradılacaq. Bura hələ Çeçenistan, İnquşetiya, Dağıstanı daxil etmirlər. Qaraçay-Çərkəz, Kalmıkiya, Başqırdıstan, Tatarıstan, Saxa (Yakutiya) və Altay. Bunlardan ən böyüyü Saxadır ki, ərazisi təxminən Çin boydadır...



**Cümşüd Nuriyev,**
siyasi elmlər doktoru, politoloq

Əslində, planetin 1/6-ni tutan Rusiya dünyanın inkişafı qarşısında bir əngəldir. Nə dövlətçilik ənənəsi normaldır, nə hazırkı siyasi fəaliyyəti, nə də yaşayış sistemi...

**_- Putinə qarşı zabitlərin müraciətinin təşəbbüskarlarından biri olan keçmiş “KQB” generalı Leonid İvaşov və onunla həmfikir olan digərləri deyir ki, Putin Amerikanın adamıdır. 20 ildən çoxdur ki, Rusiya bir xammal ölkəsi kimi Qərb tərəfindən talanır. Oliqarxların, o cümlədən Putinin özünün hesabları, pulları Qərb, ABŞ banklarındadır. Amerika dövləti isə Rusiya vasitəsilə Avropaya xof yaradır. Rusiya bu gün Ukraynanı-filanı işğal etsə, sabah da sizin ölkələri işğal edəcək, ona görə təcili silahlanmalısınız. Son Ukrayna gərginliyi ilə də ABŞ-ın hərbi sənaye kompleksini varlandırmaq məqsədi güdülür... Bu versiyaya münasibətiniz necədir?_**

> “Ukrayna “gülləsi” ilə 4-5 “dovşan” vurmaq niyyətindədirlər

> Xalqın diqqətini əsas məsələlərdən yayındırmaq üçün müharibə etmək Kremlə sərf edir

> Rusiyanın Ukrayna ilə müharibəyə başlaması Çinin də marağındadır

- ABŞ-da hakimiyyətə gələnləri dəstəkləyənlərin yarıdan çoxu silah tacirləridir. Bizdən fərqli olaraq Amerikada loq-rollinq deyilən lobbiçilik texnologiyası var: səslərin satılması... Əvvəlcədən hansısa prezdent, yaxud senator seçilmək istəyənə qanuni şəkildə pul verirlər ki, get xərclə, səs topla və onlar da seçildikdən sonra həmin şəxslərə istədikləri vəzifəni verirlər. Bizdə bunu rüşvətlə həyata keçirirlər. Amerikanlar bu sistemi SSRİ-yə qarşı həyata keçirdilər. Qorbaçovdan öncə Mərkəzi Komitə katibi Yakovlevi ələ almışdılar. Ondan sonra da onun əli ilə Qorbaçovu və digərlərini ələ alıblar. Bunun sayəsində dövləti çökdürdülər... Bu baxımdan, Putinin Rusiyadakı əleyhdarlarının söylədiyində böyük həqiqət payı var. Əslində, ABŞ və Rusiya gizli oyun oynayır. Öncə dediyim kimi, Putinin ətrafında bir böyük vəzifəli təmiz rus yoxdur, əsasən alman və yəhudilərdir. Və onlar da Rusiyanın daşınmaz əmlakının 70 faizinə qədərini əllərində cəmləyiblər. Bir də ölkənin neft-qaz xammalını kəmərlər vasitəsilə talamaqla məşğuldurlar. Bu layihənin başında Amerika dayanır və təbii ki, Putin də orada aparıcı rol oynayır. Diqqət edirsinizsə, Almaniya Ukrayna məsələsinə o qədər də qarışmır. Baş verənlərin mahiyyəti haqqında kifayət qədər məlumatlıdır. Odur ki, Almaniya Ukraynaya bir səhra xəstəxanasından savayı heç nə vermədi. Açıq bildirdi ki, daha heç nə verməyəcək...

Yeni dünya düzənində ABŞ birmənalı şəkildə yerini tutmaq istəyir. Burada Amerikanın Rusiya ilə birgə məqsədi Çini oyundan çıxarmaqdır.

Çin də bunu bilir. Ona görə də hazırda Rusiyanın məqsədi ABŞ vasitəsilə Çini çökdürmək və özünü yeni güc mərkəzi şəklində dünyaya təqdim etməkdir...

**_- Rusiya müvəqqəti olaraq Ukrayna böhranından qalib çıxarsa, həmin ölkəyə təcavüzü reallaşarsa və Xarkov vilayətinin işğalına nail olarsa, bu, Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur torpaqlarımızın tam azadlığı, Laçın, Xankəndi, Xocalı və s. problemlərinin həlli məsələsinə necə təsir edə bilər?_**

- İnanmıram ki, Rusiya Xarkovu işğal etsin. Bu ərazi ona lazım deyil. Kremlin əsas məqsədi Mariopol ərazisini işğal etməkdir. Ona görə ki, Rusiya həmin şəhəri götürsə, birbaşa Qara dənizə quru yolu açılır. Hazırda dəniz yolu ilə Kerçdən keçən körpü müvəqqəti işdir. Yəni Krım hələ tam şəkildə Rusiyanın deyil, çünki quru sərhədi yoxdur. Putin çalışacaq ki, fürsətdən yararlanıb Mariopol istiqamətindən Azov dənizi sahillərini zəbt etsin. Əgər rusların bu planları varsa, belə çıxır ki, diqqəti Xarkovu yönəldib fikri yayındırırlar...

Allah göstərməsin, Putin Ukraynada qalib olsa, bu, Qarabağın yaxın gələcəkdə yenidən əlimizdən çıxması deməkdir. Bu, birmənalıdır. Diqqət edirsinizsə, Putin Ukrayna ilə bağlı fikirlərində ciddiləşir, ermənilər şirəyə daraşan it arısı kimi vızıldaşır. Araik Arutyuntan kimdir ki, gedib Moskvada Şuşanın, Hadrutun “taleyini həll edir”?..

Azərbaycanın Laçın dəhlizinə alternativ yolun çəkilişini sürətləndirməsi hayları daha da hiddətləndirib. Həmin yol çəkilib başa çatanadək ermənilər hər cür təxribat törədəcək. Rusiya Qarabağda oturub, biz deyə bilmərik ki, o torpaqlar tam mənada bizimdir. Düzdür, İlham Əliyev çox böyük iş gördü, son iki yüz ildə ilk dəfədir ki, Azərbaycanın işğal edilmiş torpaqları geri qaytarılır. Şuşa azad olundu... Elə Rusiyanı, revanşist, daşnak erməniləri havalandıran da budur... Ona görə də dövlət və xalq olaraq çox ayıq olmalıyıq...

**_✍ Sultan Laçın_**



# Ruslar Ukraynaya hücum etmədi...

## Gündəm

**Neçə vaxtdır dünyanın gözü-qulağı Rusiyadadır ki, görsünlər nə vaxt Ukraynaya hücum edəcək. Yeri gəlmişkən, ABŞ Prezidenti Co Bayden konkret vaxt qoymuşdu - rus ordusu fevralın 16-da Ukrayna sərhədlərini keçəcək. Nə qəribə işdirsə, fevralın 16-sı oldu, amma Rusiya qoşunları, nəinki Ukrayna sərhədlərini pozmadı, əksinə, sərhədyanı bölgələrdə təlim keçən tankını-topunu geri çəkməyə başladı.**

Üstəlik, həm Prezident Vladimir Putin, həm də xarici işlər naziri Sergey Lavrov əvvəllər də olduğu kimi, dönə-dönə vurğuladılar ki, Ukraynaya hücum etmək niyyətləri olmayıb və bu gün də yoxdur. Ordunu öz bazalarına qaytarırlar və danışıqlar aparmaq üçün qapını açıq saxlayırlar. Müharibə təhlükəsi sovuşdumu? Co Bayden yenə ipəsapa yatmır, deyir ki, ruslar aldadır, bir-iki texnikanı geri çəkməklə iz azdırır, işğal təhlükəsi qalır və sair.

Qeyd edək ki, Rusiyanın dərdi Ukraynanı işğal etmək yox, öz sərhədlərində Qərbin hərbi varlığının formalaşmasına edilən cəhdlərdir. Yəni NATO-nun yerləşmək istədiyi ölkə Türkmənistan, hətta öz Azərbaycanımız da olsaydı, Rusiya eyni təcavüzkar mövqe sərgiləyərdi. Demək ki, Kreml düz deyir, problem NATO-nun Ukraynaya yerləşmək istəyi, Amerika hücum silahının Rusiyanın sərhədlərinə gətirilməsinə cəhddir. Elə Rusiya tərəfi də buna hər zaman fərqli müstəvilərdə etiraz edib.

■ **Rusiyanın İsveçdəki səfiri Viktor Tatarintsev qeyri-diplomatik şəkildə İsveçin “Aftonbladet” nəşrinə müsahibəsində bildirib ki, ölkəsi Ukraynaya növbəti müdaxiləsinə cavab olaraq Qərbin potensial sanksiyalarından qorxmur.** ”Biz çoxdandır onların sanksiyalarını görürük. Onlar bir çox cəhətdən iqtisadiyyatımıza və kənd təsərrüfatımıza müsbət təsir göstərdi. Özümüzü daha çox təmin etdik və ixracı artıra bildik. Bizdə nə italyan, nə də İsveçrə pendirləri var, lakin italyan və İsveçrə reseptlərinə uyğun olaraq eyni dərəcədə yaxşı rus pendirlərini necə hazırlamağı öyrənmişik”, - Tatarintsev bildirib.

Onun sözlərinə görə, Rusiyanın Ukraynaya müdaxiləsi baş verəcəyi təqdirdə, Avropa İttifaqı və ABŞ-ın tətbiq edə biləcəyi yeni sanksiyalar müsbət olmasa da, hər halda Qərbin təsvir etməyə çalışdığı qədər təhlükəli deyil. Tatarintsev deyib ki, Qərb dünyası rus mentalitetini başa düşməyib. “Qərb ruslara nə qədər çox təzyiq etsə, ruslar onların əks-reaksiyasında bir o qədər güclü olurlar”, - səfir bildirib.

Rusiyanın Ankaradakı səfiri Aleksey Erxov isə ölkəsinin NATO-dan konkret istəkləri barədə danışıb. Bildirib ki, çox sadə bir şey istəyirlər - Moskvanın başa düşülməsini. “Nəhayət, istəyirik ki, Moskvanın istədikləri başa düşülsün və sayğı göstərilsin. İllərdir, NATO-nun genişləndiyini, raketdən müdafiə sistemlərinin və sərhədlərimizə yaxın digər ölkələrin torpaqlarında hərbi birliklərin yerləşdirildiyini, yəni hərbi təsislərin yaradıldığını, hərbi təlimlərin keçirildiyini narahatlıqla izləyirik. Kimlərsə bundan məmnun qala bilər, biz məmnun deyilik. Əgər həqiqətən də Avropada təhlükəsizliyin ortaq və bölünməz olduğunu düşünsək, 1999-cu ildə İstanbulda Avropa Təhlükəsizlik Şərtini qəbul edərkən tam olaraq razılığa gəlmişdik. O vaxt bildirmişdik ki, narahatlıqlarımız nəzərə alınmalı və aradan qaldırılması üçün addımlar atılmalıdır. Əks halda, tankın evimizə doğru hərəkətə keçməsini gözləmədən raket sistemini hərəkətə gətirəcəyik”, - Erxov bildirib.

Səfir qeyd edib ki, onların dərdi Ukrayna deyil, ümumilikdə qlobal təhlükəsizliklə bağlıdır. Üçbaşlı siyasət yürütməklə ortaqlıq etmək olmaz. Bu məsələdə sadəcə münasibət bildirmək problemi həll etmir, qəti və əməli hərəkət etmək lazımdır. “Beynəlxalq gərginliyi sadəcə Rusiya-Ukrayna böhranı səviyyəsinədək kiçiltmək doğru olmazdı. Problemin mərkəzində Moskva - Kiyev deyil, Moskva - Vaşinqton və Moskva - Brüssel anlaşılmazlığı, yəni NATO dayanır. Əsas məsələ odur ki, NATO illərdir Rusiya sərhədlərinə doğru genişlənməkdədir. NATO dediyimiz zaman, hər şeydən öncə potensial olaraq Rusiyanın milli təhlükəsizliyi üçün həqiqi və birbaşa təhlükə yaradan ən müasir hücum silahları başda olmaqla, bu hərbi alyansın infrastrukturunu düşünürük. Özünüz düşünün: bir axşam işdən sonra evinizin qarşısında oturub dincəlmək istəyirsiniz və bu zaman qonşunuzun həyətində lüləyi sizə tərəf çevrilmiş tankı görürsünüz. Təbii ki, narahat olacaqsınız və bu tankın evinizə atəş açmayacağı, mülklərinizi onunla bölüşməyi tələb etməyəcəyi məsələsində bir növ təminat almaq istəyəcəksiniz. Biz də, təəssüf ki, tarixdə bir neçə dəfə olduğu kimi, Qərbdən müharibə təhdidlərinin yüksəlməyəcəyinə dair hüquqi müstəvidə təminat almaq istəyirik. Buna görədir ki, təsdiqlənəcəyi təqdirdə müştərək maraqlara uyğun olaraq Rusiyanın narahatlığını aradan qaldıra biləcəyini düşündüyümüz sənədlərin layihələrini həm ABŞ-a, həm də NATO-ya təqdim etdik. Bu müstəvidə apardığımız işlər Rusiya-Ukrayna məsələsindən daha genişdir. Ukraynanın NATO-ya üzv olmaması, torpaqlarında xarici əsgərləri və hücum silahlarını yerləşdirməməsi, bizcə, sözünü etdiyim layihələrin sadəcə bir hissəsidir”, - səfir deyib.

■ **Avrasiya Demokratiya İnstitutunun direktoru Peter Zalmayevin fikrincə, Kremlin Ukraynaya münasibətdə qəti məqsədi bilinmir.** Sərhədlərə baxdıqda çox qarmaqarışıq hərbi yığnaq mövcuddur və üstəlik, davamlı olaraq əlavə qüvvələr də gətirilir. “Deyirlər ki, Rusiya Ukrayna ilə sərhədə 100 minlik ordu cəmləyib. Məncə, bu qədər ordu ilə Ukraynanın tamamını və ya böyük bir hissəsini işğal etmək mümkün deyil. Putin sadəcə qan və xəzinə axtarışında qalaraq sərhəddə varlığını qoruyacaq. Bununla da Qərb güclərinə qarşı öz kartlarını qarışdırmağa və hərbi hücum üçün təşkilati məsələləri başa çatdırmağa davam edəcək”, - deyən Zalmayev bu qənaətdədir ki, Putin heç bir halda Qərb qüvvələri ilə birbaşa üzləşməyə səbəb verəcək addım atmayacaq. Putin bilir ki, soyuqqanlı davranmaq lazımdır, əks halda, uzun illər davam edəcək antirust təbliğatın və çox ciddi iqtisadi-siyasi sanksiyaların altında əziləcək. Xüsusilə də Putin yüzminlərlə rus əsgərinin ölümünü arzulamır.

Müsahibə görə, Putinin qəti məqsədi Ukrayna üzərində nəzarəti saxlamaqdır. Əgər bu istəyini reallaşdıra bilsə, Makron və Şolts kimi füqurlar da həm öz ölkələrində, həm də NATO-da nüfuzlarını gücləndirəcəklər.

■ **Türkiyədəki Aydın Universitetinin doktoru Ramazan Kurtoğlu isə çox maraqlı məqama toxunub. Bildirib ki, ABŞ israrla Ruisyanın Ukraynaya hücuma keçəcəyini deməsi bəzi real təhlükələri diqqətə çatdırsa da, əslində başqa niyyətləri də ola bilər.** Bu gün Vaşinqtonun əsas dərdi dolların dünya miqyasında pul vasitəsi olaraq ortadan qaldırılmasına doğru atyılan addımlardır. “ABŞ nüvə hücumuna məruz qalarsa daha çox sarsılar, yoxsa dünya birliyi əsas tədavül vasitəsi kimi dollardan imtina edərsə? Bax, bu sualın cavabını tapmaq lazımdır. Təbii ki, dolların qlobal pul vahidi olmaqdan çıxması Birləşmiş Ştatlara həm iqtisadi, həm də siyasi müstəvidə zərbə olardı. Bu səbəbdən də dolların qlobal dövriyyədən çıxarılmasına doğru atılan hər bir addım özü ilə müharibə gətirə bilər. Mən hətta deyərdim ki, artıq məhz bu proseslə əlaqədar olaraq 3-cü Dünya Müharibəsi bizə doğru yaxınlaşır”, - R.Kurtoğlu bildirib. Kurtoğlunun sözlərinə görə, istənilən genişmiqyaslı müharibə ABŞ-a məhz dolların tədavüldə qalması üçün lazımdır. Bu səbəbdən də belə bir müharibənin Rusiya ilə Ukrayna arasında olması Vaşinqtonun işinə çox yarayardı. “Dünyada sərhədlər, siyasi xəritələr yenidən cızılmaqdadır. Yaxın illərdə hər kəs bağban, əkinçi olacaq, Hər kəs evinin qarşısındakı torpaağı əkib-becərin öz azuqəsini yığacaq qədər çətin zaman gəlir.

Müharibənin miqyası çox böyük olacaq. Bu müharibənin haralara uzanacağına isə 2024-cü ildə ABŞ-da keçiriləcək prezident seçkisi istiqamət verəcək”, - Aydın Universitetinin doktoru bildirib.

> “ Qərb dünyası rus mentalitetini başa düşməyib

> “ Putin sadəcə qan və xəzinə axtarışında qalaraq sərhəddə varlığını qoruyacaq

> “ İstənilən genişmiqyaslı müharibə ABŞ-a məhz dolların tədavüldə qalması üçün lazımdır

**_✍ Vüsal Tağıbəyli_**

# Pirlərdə yığılan pullar

## Araşdırma

***Azərbaycanda dini qurumlar ianə edilmiş pul vəsaitlərini plastik kart və elektron ödəmə sistemləri vasitəsilə qəbul edə biləcəklər. Bununla bağlı məsələ Milli Məclisin son iclasında müzakirəyə çıxarılan "Dini etiqad azadlığı haqqında" qanuna dəyişiklikdə öz əksini tapıb. Dəyişikliklə dini qurumlar könüllü ianələr üçün müraciət edə, habelə bu ianələri nağd və ya bank, poçt, plastik kart, elektron ödəmə sistemləri yaxud internet vasitəsilə qəbul edə biləcəklər. Müzakirələrdən sonra dəyişiklik səsverməyə qoyularaq ikinci oxunuşda qəbul edilib.*** **Bu məsələnin müzakirəsi yenidən pirlərə, ziyarətgahlara gələn insanların ianələrinin taleyi ilə bağlı fikirlərin aktuallaşmasına səbəb olub. Hafta.az bu məsələ ilə bağlı ölkənin ictimai-siyasi kəsiminin mövqeyini öyrənib:**




**Hara və necə xərclənir?**



**Elşad Miri,**
dinşünas alim

*"Pirlərə yığılan pullar hara gedir, nəyə xərclənir, hamısı Komityə məlumdur*



**Fazil Mustafa,**
Milli Məclisin deputatı

*"Pirlərdə və başqa yerlərdə nəzir mexanizmi yığışdırılmalıdır*



**Mirmahmud Mirəlioğlu,**
Klassik Xalq Cəbhəsi Partiyasının sədri

*"Bu məsələlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin görə biləcəyi iş deyil, buna da ehtiyac yoxdur*



**Sərdar Cəlaloğlu,**
Azərbaycan Demokrat Partiyasının sədri

*"İnsanların pirlərə, ayrı-ayrı ziyarətgahlara nəzir qoymaları günahdır...*

■ **Elşad Miri, dinşünas alim:**

- İslam dinində pir anlayışı yoxdur. Eləcə də hansısa qəbir üstünə gedib, ora nəzir qoymaq da düzgün deyil. Nəhayət, cəmiyyət bunu birdəfəlik bilməlidir. Qəbirləri ziyarət etmək olar. Bu bizə o biri dünyanı, gələcəyimizi xatırladır və bizə deyir ki, yaxşı əməllər gör... Amma bu gün dini biznes halına gətirən, "din biznesmenləri"nin olduqları məkanlara gedib ora pul atmaq yanlışdır. Gedib ziyarətgah dediyimiz yerlərdə hansısa daşa, zəncirə pul atmaqdansa, onu öz ətrafımızdakı imkansızlara, kasıblara versək, onlara əl tutsaq, daha savab olar. İnsanların "Orada Allah görür, o biri tərəfdə görmür" düşüncəsi Allaha şərik qoşmaqdır, böyük günahdır. Uzun illər insanlar arasında formalaşan bu ənənədən birdən-birə imtina edilməsi də asan deyil. Biz klassiklərimizin, məsələn, Nəriman Nərimanovun "Pir" hekayəsində, Cəlil Məmmədquluzadənin və yaxud digər ədiblərin əsərlərində bu kimi neqativ hallara qarşı necə mübarizə aparıldığını görürük. Biz çox vaxt onları oxuyub gülürük. Amma gülüş vəziyyətinə özümüzü də salırıq. İnsanları maarifləndirmək lazımdır. Bu cür məsələlərin tez-tez gündəmə gətirilməsi insanların oyanmasına, ayılmasına səbəb olacaq. Əks halda, "Ölülər"in müasir seriyasını çəkən xalq olacağıq. Faktiki bu sahədə olan insanlar gedib orada özlərinə biznes qurublar. Çox əla gəlir də götürürlər. Onlar din dövlətdən ayrı olduğuna görə vergidən də uzaqdırlar. Bu işlə, təbii ki, Dini Komitə məşğul olmalıdır. O da kitablara rəy verməklə, imam təyin etməklə məsələləri gündəmdə saxlayır. Pirlərə gedən pul məsələlərinə qarışmır. Digər tərəfdən, bəzi ilahiyyatçılar heç bir yerdə işləmədiklərinə görə, bundan onlara müəyyən qırıntılar çatdığına görə ağızlarına su alıb oturublar.

Nəzir və ianələr, eləcə də dini idarəçilik məsələləri Qafqaz Müsəlmanları İdarəsindın alınaraq Dini Komitəyə verilib. Ümid edirəm ki, Komitədə də, həmin sistemdə də təfəkkür dəyişəcək. Pirlərə yığılan pullar hara gedir, nəyə xərclənir, hamısı Komitəyə məlumdur. Bu işə nəzarət edən ayrı-ayrı bölmələr var.

Elələri var ki, onlara konkret olaraq Qafqaz Müsəlmanları İdarəsi nəzarət edir. Onların nümayəndələri həmin məkanda blomlar açır, pulu götürür və kənardakı müəyyən insanlara müəyyən qədər vəsait ödəyirlər. Elə məkanlar da var, məsələn, Mir Mövsüm ağa kimi yerlərdə isə bölüşdürülür.

Bu, yerinə görə dəyişir. Məsələn, "Beşbarmaq" deyilən yerdə tamam başqadır, Bibiheybət isə QMİ-dədir. Orada pullar mollalara verilir, özlərinə götürülür, bunu Komitə daha yaxşı bilir. Qafqaz Müsəlmanları İdarəsinin qazilərinə, imamlarına, axundlarına zəng edin və soruşun: haradan maliyyələşirsən? İdarə etdiyin bahalı maşını hansı pulla almısan? Dini Komitənin sizə 300-500 manat məbləğində yardımı ilə necə dolanırsınız? Cavab verəcəklərmi? Hacılardan, kərbəlayılardan, axundlardan soruşun, onların maliyyə məsələləri şəffafdırmı?!

■ **Fazil Mustafa, Milli Məclisin deputatı:**

- Müsəlmanın ibadət yeri məsciddir. Biz ziyarətgahları da ibadət kateqoriyasına daxil etmişik. Bu yanlışdır. Nə edək ki, tarixboyu belə davam edib. Uzun illərdən qalan dini adət olduğuna görə, bu mövzuya çox toxunulmur. İndi də onlayn qaydada nəzir və başqa ianələrin verilməsi nəzərdə tutulur. Bu, bütövlükdə müəmmalı, açıq qalan məsələdir. Yəni pirləri ziyarət etmək hansısa qanunla tənzimlənmir, adətlə həyata keçirilir və bunun da hesabatı yoxdur. Bunların hamısı keçmişlə bağlı, dinə aid olmayan rituallardır. Belə vəziyyət əsasən cəhalətin yayıldığı ölkələrdə ola bilər. Ona görə də pirlərdə və başqa yerlərdə nəzir mexanizmi yığışdırılmalıdır. İnsanları belə ayinlərdən uzaqlaşdırmaq üçün maarifləndirmə olmalıdır. Dövlət cahil insanların sayını azaldacaq imkanlara sahib deyil. Savadlı insanların sayını artırmaqla cahillər azala bilər. Pirlərin ziyarəti bütün cəmiyyətə yayıldığına görə bu, çox təhlükəli məsələdir. Ona görə də insanların təhsil almasını təmin etmək lazımdır. Həmin ibadət yerlərinə təhsilli, vəzifəli, diplomlu adamlar da çox gedir. Bu zaman məsələnin qadağa ilə yoluna qoyulması gündəmə gəlir ki, bu da mümkünsüzdür. Şəhərlərdə, kəndlərdə belə pirlər var. Bunlar tarixi abidə kimi Mədəniyyət Nazirliyinin tabeliyinə verilə bilər ki, ona baxılsın. Belə olan halda ora inanc yeri kimi baxılması doğru olmur. Ona görə də ziyarət kimi tanınan yerlər Mədəniyyət Nazirliyinin tabeliyinə verilməlidir. O ki qaldı qanunverici orqanda bu məsələnin necə tənzimlənməsinə, bu, mümkün olsa da, deputatın sözünü eşidən yoxdur. Dəfələrlə bu istiqamətdə təkliflər vermişik, heç kəs eşitmir. Bizdə adətdir ki, hər şey faciəyə çevriləndə təkliflər eşidilsin, nəzərə alınsın. Cəhalət ölkəyə yayılıb ciddi ziyanlar vurandan sonra bu barədə düşünərlər. "Pirlərə verilən pulların xərclənməsinə nəzarət mexanizmi necə qurulmalıdır?" sualına cavabları var. Biz bunun formasını bilirik. Bunu söyləmək problem deyil, amma mənası yoxdur. Söylənilənləri nə cəmiyyət diqqətə alır, nə də dövlət.

■ **Mirmahmud Mirəlioğlu, Klassik Xalq Cəbhəsi Partiyasının sədri:**

- Azərbaycan vətəndaşlarının pirlərə, ziyarətgahlara getməsi şəxsi məsələdir. Burada mövhumatçılıq olsa da, bu, adamın şəxsi puludur, şəxsi ianəsidir, verirsə, özü bilər. Adama deyərlər, mən sənin şəxsi işinə qarışırammı, deyirəmmi, sən ateistsən, Allaha inanmırsan. Quruluşlar dəyişsə də, pirlər, ziyarətgahlar öz yerlərində qalıb. Bu, hər yerdə, bütün dinlərdə var. Hətta dünyanı idarə edən, iddiada olan dünya güclərinin rəhbərləri də daim öz andiçmə mərasimlərində dini ayinləri icra ediblər. Dini inancları da yerindədir. Məsələni müzakirəyə çıxaranlar unudurlar ki, buna nəzarət mexanizmi yoxdur, mümkün deyil, bunu etmək olmaz. Unutmasınlar ki, dünyanın aparıcı dövlətlərindən olan Səudiyyə Ərəbistanı hər il edilən ziyarətlər hesabına milyardlarla pul qazanır. Azərbaycanda din dövlətdən ayrıdır. Bu məsələlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin görə biləcəyi iş deyil.

Hamı hesab edir ki, nəzir qutuları Qafqaz Müsəlmanları İdarəsinə daxildir. Bu belə deyil. Bu nəzir qutuları pirlərdə, qəbirlərdə, harada qoyulubsa həmin yerdə xərclənir. Bir də insanları məcbur aparmırlar ki, özləri gedirlər. Düzgün təbliğat apara bilmiriksə, insanları maarifləndirmiriksə, bu, başqa məsələdir. Kimsə başqasının puluna niyə nəzarət etməlidir? Bu, gülməli, həm də ayıbdır. Ola bilsin, konstitusiya dəyişsin. "Pirlərə gedilməməlidir" deyilirsə, lap yaxşı, marşrutu bağla. Gedilməlidirsə, dövlət tərəfindən qorunsun. Bununla məşğul olanlar özlərini heç nə bilməmiş kimi aparırlar.

Mərhum Heydər Əliyev çıxışlarının birində dedi ki, mən Mirmövsüm Ağanın ziyarətinə gedirdim. İndi istəyirlərsə qadağa qoysunlar, heç kəs getməsin. Unutmayın ki, Azərbaycanda vicdan azadlığı deyilən qanun var, bu da Konstitusiyada təsbit olunub.

■ **Sərdar Cəlaloğlu, Azərbaycan Demokrat Partiyasının sədri:**

- İnsanların pirlərə, ayrı-ayrı ziyarətgahlara nəzir qoymaları günahdır. Pirlərə qoyulan pulun kimin cibinə getməsi heç kəsə maraqlı deyil. Qurani-Kərimdə Allah-Taala buyurur ki, haram yolla qazanılan pulla məscid tikmək, xüms, zəkat vermək qadağandır. Kimsə gedib pirə nəzir verirsə, o nəzirdən heç bir müsəlman faydalanmamalıdır.

İnsanlar İslamı səmimi qəbul etmədiklərinə görə pirlərə gedirlər. Allaha inanmırlar, inansaydılar pirlərə gedib daşlardan, ağacdan imdad ummazdılar. Azərbaycan xalqına İslamdüzgün çatdırılmayıb. Yüz il bundan əvvəl Əhməd bəy Ağayev İslam dininin düşdüyü vəziyyətlə bağlı deyir: nə vaxt ki, siz din alimlərinin dalınca getdiniz, həmin vaxt da Quranı tərk etdiz. Həmin vəziyyət bu gün Azərbaycandadır. Rusiyanın yaratdığı Qafqaz Müsəlmanları İdarəsi ləğv olunmalıdır...

✍ *Tahirə Qafarlı*



**Könül Nurullayeva,**
millət vəkili

# Qarabağa, Şərqi Zəngəzura qoyulan sərmayə

**Azərbaycan işğaldan azad olunmuş əraziləri öz maliyyə imkanları hesabına bərpa edir. Biz bu istiqamətdə qarşıya qoyduğumuz bütün hədəfləri reallaşdırırıq. Ali Baş Komandanın söylədiyi kimi, tarixi Zəfərdən sonra vaxt itirmədən bu işlərə start vermişik, siyasi iradə ortaya qoymuşuq, bütün maliyyə və texniki imkanlarımızı, kadr potensialımızı səfərbər etmişik. Bu fikirləri hafta.az-a millət vəkili Könül Nurullayeva deyib:**

- Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdama səfəri zamanı yeni müəssisələrin təməli qoyuldu. Bu, dövlət başçızımızn Ağdama 3-cü səfəri idi. Hər yeni səfər zamanı bu ərazilərə yeni nəfəs, yeni inkişaf gəldiyini görürük.

Prezident İlham Əliyev yerli sahibkarlara müraciət edərək, onları Ağdama, o cümlədən digər azad olunmuş ərazilərimizə dəvət etdi. Bu ərazilərə yatırılan hər yeni investisiya yeni iş yeri, yeni inkişaf deməkdir. Bu gün Qarabağa, Şərqi Zəngəzura qoyulan sərmayə yaxın gələcəkdə bütövlükdə ölkəmizin inkişafına qoyulan sərmayə olacaq.

Bütün azad olunmuş ərazilərdə müasir standartlara uyğun infrastruktur qurulmaqdadır. Təsadüfi deyil ki, azad edilmiş torpaqlarda qurulan yarımstansiyaların sayı 9-a çatıb. Qaz xətlərinin çəkilişi layihəsi işlənir, içməli su ilə təminat, yol-nəqliyyat infrastrukturu - avtomobil və dəmir yolu tamamilə yenidən qurulur və s. Bu, yeni yaradılan müəssisələrin daha səmərəli fəaliyyətini təmin edəcək. Eyni zamanda yeni Mərkəzi Xəstəxananın təməli qoyulub, minə yaxın şagirdin təhsil alacağı məktəb inşa olunmaqdadır. Altı evdən ibarət yaşayış kompleksi iki ilə inşa ediləcək.

**Hər yeni səfər zamanı bu ərazilərə yeni nəfəs, yeni inkişaf gəldiyini görürük**

190 hektar ərazidə qurulacaq Sənaye Parkı Ağdamı ən inkişaf etmiş şəhərlərdən birinə çevirəcək. Burada sənayenin inkişafı təmin olunacaq, ənənəvi sahələr bərpa olunacaq. Şəhərin gələcək inkişafı ilə bağlı əsas plan yaşayış binalarının inşası, iş yerlərinin açılmasıdır. Yəni, buraya geri qayıdacaq insanlar işlə təmin olunmalıdırlar. Bu istiqamətdə də addımlar atılır. Bölgələrdə infrastruktur layihələrinin icrası sahibkarlıq üçün də əlverişli imkanlar yaradır.

✍ Azad



■ **"ABŞ və NATO Rusiya üçün təhlükə yaratmır, Ukraynada raketlərimiz yoxdur və onları orada yerləşdirməyi planlaşdırmırıq". Bunu ABŞ Prezidenti Co Bayden videomüraciətində deyib.**

"İcazə verin, nə etmədiyimizi açıq deyim. ABŞ və NATO Rusiya üçün təhlükə deyil. Ukrayna Rusiya üçün təhlükə deyil. ABŞ və NATO-nun Ukraynada raketləri yoxdur.

Bizim onları Ukraynada yerləşdirmək planımız da yoxdur", - deyə Bayden bildirib. O, həmçinin vurğulayıb ki, ABŞ Rusiya xalqını hədəfə almayıb və Rusiyada sabitliyi pozmağa çalışmır. "Rusiya vətəndaşlarına deyirəm: siz bizim düşmənimiz deyilsiniz. Mən inanmıram ki, siz Ukrayna ilə qanlı, dağıdıcı müharibə istəyirsiniz".



■ **Avronest Parlament Assambleyası bürosunun iclası 19-22 fevral tarixlərində Ermənistanın paytaxtı İrəvanda keçiriləcək. Hafta.az xəbər verir ki, bu barədə məlumatı "Hraparak" qəzeti yayıb.**

Məlumata görə, Assambleyanın siyasi, insan hüquqları və demokratiya, enerji təhlükəsizliyi, iqtisadi inteqrasiya, hüquqi yaxınlaşma və Avropa İttifaqı siyasəti, sosial məsələlər, məşğulluq, təhsil, mədəniyyət və vətəndaş cəmiyyəti üzrə daimi komissiyalarının, Avronest Parlament Assambleyasının və Şərq Tərəfdaşlığının üzvləri Ermənistana səfər edəcək. Qəzet yazır ki, Azərbaycan da ilkin olaraq iclasda iştirakını təsdiq edib və Azərbaycan nümayəndə heyətinin İrəvana səfər edəcəyi istisna edilmir.




■ **"Müəllimlərin İşə Qəbul müsabiqəsinin test imtahanları ilə bağlı hazırda bir neçə mərhələnin keçirilməsi nəzərdə tutulmur".**

Bunu "Müəllimlərin işə qəbulu və yerdəyişməsi qaydalarında yeniliklər" mövzusunda keçirilən onlayn brifinqdə Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri Eşqi Bağırov bildirib. Onun sözlərinə görə, lakin vakansiya seçimi 2 mərhələdə olacaq: "İlk növbədə şəhid ailəsi üzvü olan namizədlər üçün imkan yaradılacaq, daha sonra isə vakansiya seçimi hər kəs üçün açıq elan ediləcək". Eşqi Bağırov bağçaya müəllimlərin işə qəbulu məsələsinə də aydınlıq gətirib. O qeyd edib ki, bununla bağlı mexanizm hazırlanır: "Bu barədə məlumatlar ictimaiyyətə təqdim olunacaq.



■ **"Avroviziya-2022" beynəlxalq mahnı müsabiqəsində Azərbaycanı təmsil edəcək iştirakçının adı açıqlanıb.**

İctimai Televiziya və Radio Yayımları Şirkətindən hafta.az-a verilən xəbərə görə, bu il ölkəmizi İtaliyanın Turin şəhərində "Səs Azərbaycan" müsabiqəsinin qalibi, istedadlı ifaçı Nadir Rüstəmli təmsil edəcək. İctimai TV-də yayımlanmış beynəlxalq lisenziyalı "Səs Azərbaycan"ın böyük finalında tamaşaçıların dəstəyini almış və səs çoxluğu ilə qalib seçilmiş gənc müğənni Nadir Rüstəmli 1999-cu ildə Salyan şəhərində doğulub və uşaq yaşlarından musiqi ilə məşğul olub. O, 2019-cu ildə "Youthvision" beynəlxalq tələbə mahnı müsabiqəsində ölkəmizi təmsil edib və 21 ölkə arasında Azərbaycana 2-ci yeri qazandırıb.



■ **Azərbaycanda keçən il vəzifəli şəxsləri barəsində cinayət işi açılan bələdiyyələr məlum olub. Bu, fevralın 18-də Milli Məclisin Regional məsələlər komitəsində müzakirəyə çıxarılacaq "Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzə"də əksini tapıb.**

Bildirilib ki, Şəki rayonunun İncə, Binəqədi rayonunun Biləcəri və Sabirabad rayonunun Kürkəndi bələdiyyələrinin sabiq sədrləri, Masallı rayonunun Sərçuvar, Qax rayonunun Avyazı, Daşkəsən rayonunun Xoşbulaq bələdiyyələrinin sədrləri barədə cinayət işi başlanıb.



■ **"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) İctimaiyyətlə əlaqələr və tədbirlər şöbəsinə müdir təyin olunub.**

TƏBİB-dən hafta.az-a bildirilib ki, TƏBİB-in sədri vəzifəsini icra edən Vüqar Qurbanovun əmri ilə bu vəzifə Zamirə Ədilovaya həvalə olunub. O, 14 fevral tarixindən etibarən vəzifəsinin icrasına başlayıb. Qeyd edək ki, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin məzunu olan Z.Ədilova ilk əmək fəaliyyətinə 2005-ci ildə "525-ci qəzet"-də başlayıb. 2008-2019-cu illərdə indiki Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində redaktor, ictimaiyyətlə əlaqələr (PR) üzrə menecer işləyib.

# Elektromobillərin sayı artır, ancaq...



***Bu il yanvarın 1-dən etibarən elektromobillərin ölkəyə gətirilməsi zamanı tələb olunan gömrük rüsumu ləğv olundu. Belə ki, sözügedən nəqliyyat vasitələri həm idxalda, həm də daxili bazarda satışda ƏDV-yə cəlb edilməyəcək. Məcəllənin 164.1.41-ci maddəsinə əsasən, istehsal tarixi 3 ildən və mühərrikinin həcmi 2500 kubsantimetrdən çox olmayan hibrid avtomobillərin idxalı və satışı - 2022-ci il yanvarın 1-dən 3 il müddətinə vergi azad ediləcək.***

## Nəqliyyat

Təbii haldır ki, ölkədə gömrük rüsumundan azad olunan elektromobillərin sayı xeyli artır. Görəsən, belə nəqliyyat vasitələri üçün təmir və servis yerləri, habelə elektrikdoldurma məntəqələri kifayət qədər varmı? Bu maşınların şarjolma müddətinin çoxluğu elektrikdoldurma məntəqələrində növbələrin yaranmasına səbəb olurmu?

■ **“SOCAR Petroleum” QSC-nin mətbuat katibi Üzeyir Həbibbəyli hafta.az-a bildirdi ki, hazırda ölkədə “SOCAR Petroleum”un cəmi iki məntəqəsində elektrikdoldurma avadanlığı quraşdırılıb. Bunlardan biri paytaxt Bakıda, digəri isə Gorus-Qafan yolu üzərində yeni inşa edilən yanacaqdoldurma məntəqəsindədir:**

“Paytaxtda elektromobilin şarj avadanlığı SOCAR-ın 1 məntəqəsində quraşdırılıb. Qurğu Sinqapur istehsalıdır, Bibiheybət məscidinin yaxınlığındakı yanacaqdoldurma məntəqəsinin ərazisindədir. Biz ötən il proqnoz vermişdik ki, il sonuna qədər bütün məntəqələrdə quraşdırılma işləri tam başa çatacaq. Avadanlıq xaricdən gətirildiyi üçün çatdırıb bütün məntəqələrdə quraşdıra bilməmişik”.

Mətbuat katibi onu da söylədi ki, “SOCAR Petroleum”un paytaxta 1 elektromobil şarj avadanlığı quraşdırılmış məntəqəsi olmasına baxmayaraq, ona tələbat elə də böyük deyil:

“Məntəqəyə günboyu 1-2 maşın yaxınlaşır. Əvvəl elektrik mühərriki ilə işləyən avtomobillərin şarj qurğusu tək bizdə idi. Hazırda digər yanacaqdoldurma məntəqələrinin daxilində də belə avadanlıqlar quraşdırılıb. Ona görə də “SOCAR Petroleum”a müraciət edən elektromobillərin sayı xeyli azalıb. Bu yaxınlarda Qubadlı rayonunun Eyvazlı kəndində Gorus-Qafan yolunda SOCAR-ın yeni yanacaqdoldurma məntəqəsi istifadəyə verildi. Qarabağ bölgəsində ilk dəfə olaraq elektrik avtomobillərinin şarj olması üçün avadanlıqlar da məhz bu ünvanda quraşdırıldı”.

Ü.Həbibbəylinin sözlırinə görə, bir elektromobilin şarj olma müddəti ortalama 20-30 dəqiqə çəkən prosesdir:

“Bir avtomabilin enerji ilə tam təmin edilməsi müddəti onun markası və modelindən asılıdır. Misal üçün “Tesla”larda bu proses 20-25 dəqiqədir. Ümumilikdə isə bu müddət bütün elektromobillərdə ortalama 30-40 dəqiqədir”.

■ **Nəqliyyat eksperti Eldəniz Cəfərov isə saytımıza açıqlamasında söylədi ki, elektromobillərin gömrük rüsumundan azad edilməsi qərarının belə avtomobillərin sayına müsbət təsiri ilin ikinci yarısından etibarən daha qabarıq hiss ediləcək:**

“Azərbaycana idxal olunan ekoloji təmiz avtomobillərin əlavə dəyər vergisindən azad olması əlamətdar hadisədir. Baxmayaraq ki, qərar bu ilin əvvəlindən qüvvəyə minib, ancaq bu avtomobillərə maraq əvvəllər də xeyli yüksək idi. Qərarın elektromobillərin sayına müsbət təsiri isə yəqin ki, ilin ikinci yarısından sonra özünü biruzə verəcək. Hələ ki, belə maşınlar üçün ölkədə yanacaqdoldurma məntəqələri və servis yerləri tam təmin edilməyib”. Ekspert hesab edir ki, bu gün Azərbaycanda olan elektrikdoldurma məntəqələrinin sayı elektromobillərin sayı ilə düz mütənasibdir:

“Hazırda istismarda olan belə maşınlar üçün elektrikdoldurma məintəqələri kifayət qədərdir. Təbii ki, belə məntəqələrə tələb artdıqca say da artacaq. Bununla bağlı 2022-ci il üçün yol xəritəsi hazırlanıb. Dövlət proqramında bu il ərzində elektrikdoldurma məntəqələrinin sayının artırılması, həmçinin bu avtomobillərin istifadəsi üçün lazımi infrastrukturun yaradılması

“

*“SOCAR Petroleum”un cəmi iki məntəqəsində elektrikdoldurma avadanlığı quraşdırılıb*

*Evdə elektrikin gərginliyi az olur deyə, avtomobilin şarj olunması saatlar çəkə bilər*

nəzərdə tutulub. Proses başa çatdıqdan sonra sahibkarların bu avtomobillərə marağının artacağı da istisna edilmir”.

Eldəniz Cəfərov onu da qeyd etdi ki, elektrik enerjisi ilə çalışan nəqliyyat vasitələrini hər kəs evində rahatlıqla şarj edə bilər. Ancaq bu proses saatlarla vaxt alacaq: “Elektromobillər elektrik enerjisi ilə şarj edildiyi üçün harada elektrik cərəyanı varsa prosesi orada həyata keçirmək mümkündür. Bunu evdə də etmək olar. Sadəcə olaraq evdə elektrikin gərginliyi az olur deyə avtomobilin şarj olması saatlar çəkə bilər. Lakin yanacaqdoldurma məntəqələrində quraşdırlmış yüksəkgərginlikli avadanlıqlar sayəsində şarjolma müddəti 30 dəqiqəyə qədər qısalıb”.

✍ ***Banu***

## Reportaj

***“İdman sağlamlığın rəmzidir” deyib atalarımız. Həm sağlam həyat tərzi sürmək, həm də formada qalmaq üçün hər gün idmanla məşğul olmaq faydalıdır. İdman insana gözəl görünüş deyil, həm də pozitiv mühit, gümrah ruh bəxş edir.***



Foto: “HƏFTƏ İÇİ”

**Sərt karantin rejimi zamanı və indi...**

# İdman mallarına tələbat

Bəziləri idman etmək üçün mütəmadi olaraq zallara üz tutsa da, bir qisim insan bu prosesi ev şəraitində həyata keçirir. Xüsusilə pandemiya dövründə idman zallarının bağlanması ora gedənlərə də evdə idmanla məşğul olmağı öyrətdi. Qeyd edək ki, uzun müddət aktiv olmayan həyat tərzi eyni zamanda artıq çəkiyə də səbəb olurdu. Məhz bu səbəbdən, sərt karantin rejimi tətbiq olunan ərəfələrdə idmanla məşğul olmaq bir çoxu üçün əsas şərtə çevrilmişdi. Elə buna görədir ki, əksər insanlar evlərinin bir hissəsində kiçik idman guşəsi yaratdı. Bu halda ən çox tələbat isə idman alətləri satılan mağazalara idi.



Foto: “HƏFTƏ İÇİ”

Hafta.az-ın əməkdaşı paytaxtda yerləşən bir neçə idman alətləri satılan obyektlərə baş çəkib, burada pandemiya müddətində yaranmış canlanma və hazırkı vəziyyətlə tanış oldu.

Öncə deyək ki, pandemiya ilə bağlı fəaliyyətinə məhdudiyyətlər tətbiq edilən idman zalları həmin dövrdə, idman alətlər satılan mağazaların qazancını xeyli artırıb. Bunu biz yox, satıcılar özləri təsdiqləyirlər.

■ **Baş çəkdiyimiz ilk ünvan Nərimanov rayonu ərazisində yerləşən idman ləvazimatlarının satıldığı geniş mağaza oldu.**

Burada qadın, kişi və uşaqlar üçün müxtəlif markalara məxsus idman geyimləri, fərqli ölçülərdə qaçış lentləri, güc trenajorları, pilates üçün alətlər - toplar, lentlər, hər çəkidə və ölçüdə qantellər, ev üçün turniklər, velotrenajor aləti, bir sözlə, idman üçün lazım olan nə varsa tapmaq mümkündür. Mağazada suallarımızı bu sahədə 3 ildən artıq təcrübəyə malik olan Elçin cavablandırdı. Ayaqüstü söhbət zamanı məlum oldu ki indi satışlarda bir qədər durğunluq var.

Bütün hallarda idman ləvazimatlarına hər zaman tələbat var. Sərt qapanmaların tətbiq edildiyi günlərdə isə idman alətlərinə maraq hazırkından qat-qat yüksək imiş:

“Zallar bağlı olan vaxtlarda satış təxminən 2 dəfəyə qədər artmışdı. İnsanlar daha çox qantel, turnik və jqutlar, həmçinin idman ayaqqabıları və geyimlər almaq üçün bizə müraciət edirlər. Hər zaman, istər sərt karantin dövründə, istərsə də indi ən çox satılan məhsullar qiyməti nisbətən ucuz olanlardır”.



Foto: “HƏFTƏ İÇİ”

Elə qiymət demişkən, mağaza rəsmisinin sözlərinə görə, burada satılan bahalı və nisbətən azalınan məhsulların qiyməti 1000 manatdan başlayır, bu hədd 2000-2900 manata qədər artır. Müştərilərinin yüksək əksəriyyətini gənclər təşkil edən digər idman alətləri satılan mağazanın əməkdaşı hazırda satışlarda durğunluq olduğunu söyləyir. Satıcı bildirir ki, əvvəllər idman dedikdə daha çox kişilər yada düşürdüsə, indi bu tamamilə dəyişib:

“Hazırda daimi müştərilərimizin əksəriyyəti xanımlardır. Bəylərdən fərqli olaraq gənc xanımlar pilates üçün lazım olan əşyalara daha çox maraq göstərirlər. Mağazada ən çox satılan məhsulların sıralaması isə belədir: idman geyimləri, qantellər, jqut və ev turnikləri”.

Müsahibimiz deyir ki, sərt karantin rejimi tətbiq olunan ərəfədə əvvəllər, ancaq zallar üçün alınan qaçış lentlərinə marağın artması onları da bir xeyli təəccübləndirib:

“Bir ara hamı qaçış lenti ilə maraqlanırdı. Xüsusən də SMS-icazə tətbiq edilən vaxtlar buna tələbat xeyli çoxaldı. Bu da təbii ki, daha çox artıq çəkidən əziyyət çəkən şəxslərə lazım idi.

Normalda bahalı və ağır alətləri daha çox idman zalı sahibləri alırlar. İndi hər kəs evdə idman edə bilmək üçün pilates topu, lenti və qantellərə maraq göstərir”.

Qeyd edək ki, həftədə, orta hesabla, 3-4 gün idmanla məşğul olmaq vərdişin formalaşması deməkdir. Mütəxəssislər mütəmadi olaraq idmana vaxt ayırmağı tövsiyə edirlər. Əlbəttə ki, bu tövsiyələr sağlamlıqla əsaslandırılır.

✍ ***Banu***

# Şirvanda insan alverinə qarşı mübarizə mövzusunda “dəyirmi masa”

**Hüquqi və Demokratik İslahatlar Mərkəzi İctimai Birliyinin Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Agentlyinin maliyə dəstəyi ilə keçirdiyi “İnsan alverinə qarşı mübarizədə vətəndaş həmrəyliyinin artırılması” layihəsi çərçivəsində növbəti tədbir Şirvan şəhərində keçirilib.**



Hafta.az xəbər verir ki, jurnalistlərin, sosioloqların və ictimai fəalların iştirak etdiyi “İnsan alverinə qarşı mübarizədə gənclərin rolunun artırılması” adlı dəyirmi masada çıxış edən Şirvan şəhər İcra Hakimiyyətinin şöbə müdirinin müavini Adəm Hüseyni insan alverinə qarşı mübarizədən danışıb. Natiq qeyd edib ki, bu sahədə maarifləndirməyə və belə hallarla mübarizəyə böyük ehtiyac var. ŞİH nümayəndəsi bildirib ki, insan alveri dünyanın ən böyük problemlərindən biridir və bu problemin həllində həm dövlət, həm cəmiyyət, həm də ictimai təşkilatlar və media birgə və fəal işləməlidir.

Sonra çıxış edən layihənin rəhbəri, HDİM sədri İlham Əliyev bildirib ki, insan alveri ilə mübqrizədə son dövrlərdə xeyli tədbirlər həyata keçirilsə də problem öz aktuallığını saxlayır: “Dövlətimiz insan hüquq və azadlıqları sahəsində ardıcıl tədbirlər görüb, qanunlar qəbul edib, islahatlar aparsa da bu sahədə ağrılı problemlər hələ də qalmaqdadır.

Xüsusilə də insan hüquq və azadlıqları üçün qara ləkə olan insan alveri cinayətlərinin mövcudluğu ağrılı problemlərdən hesab olunur. Hazırkı dövrdə bu sahədə dünyada münbit şəraitin yaranması cinayətkar qrupların diqqətini cəlb edib və bu da Azərbaycanın ailə dəyərlərinə, ənənələrinə zidd olan insan alverinin daha da aktuallaşması ilə nəticələnib. Bu səbəbdən də təşkilatımız bu sahədə əlindən gələni etməyə çalışır ki, bu problemin həllinə öz töhfəmizi verə bilək”.

■ **Şəhər Gənclər Evinin direktoru Əfqan Həsənov insan alveri ilə bağlı faktların əsasən gənclərə çatdırılmasının, onların bu cinayətkar şəbəkənin tələsinə düşməməsi üçün kifayət qədər məlumatlı olmasının bu hallarla mübarizədə əsas rol oynadığını deyib.**

Qeyd edib ki, belə hallarla qarşılaşdıqda dərhal hüquq-mühafizə orqanlarına məlumat verilməsi bu cür cinayətkarların vaxtında aşkar edilməsini təmin edər və başqalarına zərər verməsininn qarşısı alınmış olar.

■ **Milli Məclisin deputatı İltizam Yusifovun səlahiyyətli nümayəndəsi Taleh Məmmədov isə bildirib ki, belə hallarla ən çox xaricə iş, təhsil üçün gedən gənclər qarşılaşır.** Onun sözlərinə görə, xarici ölkələrə gedən gənclər xüsusilə ehtiyatlı olmalı, etibarlı olmayan yerlərə, şəxslərə inanmamalı, pul qazanmaq üçün qanunaziddi fəaliyyətlə məşğul olmamalıdırlar.

■ **Tədbir iştirakçıları olan gənclərdən Sahil Məmmədov, Ələkbər Nəzərov, Nuray Əliyeva və digərlər çıxış ediblər. Qeyd ediblər ki, insan alveri ən böyük cinayətlərdən biridir və bu problemin qarşısını almaq üçün bütün imkanlardan istifadə edilməlidir.**

Çıxışçılar ictimai təşkilatların və medianın maarifləndirmə işində xüsusi rolunu qeyd ediblər və vurğulayıblar ki, bu işdə onlara dövlətin və cəmiyyətin dəstək verməsi problemin aradan qaldırılmasında çox böyük roy oynayır.

Tədbirdə mövzu ətrafında geniş müzakirələr aparılıb, dünya ölkələrinin bu sahədəki təcrübəsindən danışılıb və Azərbaycanda bu istiqamətdə həyata keçirilən tədbirlərin əhəmiyyəti qeyd olunub.

Xüsusən, çıxış edən gənclər bu sahədə üzərlərinə düşən hər şeyi etməyə hazır olduqlarını, bu işdə bütün imkanlarından istifadə etməyin vacib olduğunu vurğulayıblar. Tədbirdə gənclərin mövzu ilə bağlı suallları ətraflı cavablandırılıb, onlara bu sahədəki faktlar və statistika çatdırılıb.

✍ ***Hafta.az***

# Apteklərdən “yoxa çıxan” dərmanlar



**Tez-tez apteklərdə bəzi dərman vasitələrinin yoxa çıxması halları ilə qarşılaşırıq. Belə ki, müxtəlif təyinatlı preparatlar bir müddət bütün yerli apteklərdə tapılmır.**

Üzərindən 1-2 ay keçdikdən sonra isə həmin müalicə vasitələri yenidən satışa çıxarılır. Bəs görəsən, dərmanların yoxa çıxıb, qısa müddət sonra yenidən satılmasına səbəb nədir?

■ **Məsələ ilə bağlı Hafta.az-a açıqlama verən tibb eksperti Rasif Bağırov bildirdi ki, apteklərdən dərmanların yoxa çıxmasının 2 səbəbi var.** Onlardan birincisi depolar, Tarif (qiymət) Şurası və dərman gətirən şirkətlər arasındakı əlaqə ilə bağlıdır. Bu halda həmin dərmanların satışı, demək olar ki, dayanır:

“Depolar, Tarif Şurası və dərman şirkətləri müəyyən “maraqlar” üçün əlaqə yaradırlar. Maraqlar toqquşduqda isə dərmanların ölkəyə gətirilməsində problem yaranır”.

Dərman vasitələrinin apteklərdən yoxa çıxıb, bir müddət sonra təkrar satışına başlanmasına gəldikdə isə ekspert buna səbəb kimi sözügedən müalicə vasitələrini xaricdə istehsal edən şirkətlərin tətbiq etdiyi limitlə əlaqələndirir: “Yerli şirkət rəhbəri xaricdə dərman istehsal edən zavodun təyin etdiyi limitə uyğun qədər məhsul ala bilir. Xarici zavodun məsul şəxsləri bir dərman vasitəsinin həm kremini, həm tabletini, yaxud da iynəsini verir. Bu zaman şərt qoyulur ki, “Verilən bütün tibbi məhsullar satılsın, növbəti hissənin hamısı bitdikdən sonra əldə edin. Eyni firmanın bir dərman çeşidi digərlərindən ayrı satılmır”. Nəticədə yerli apteklərdə sözügedən xarici məhsullar satıldıqdan sonra yeni hissəsi ölkəyə gətirilir. Bu da bir qədər vaxt alır”.

“ *Yerli şirkət rəhbəri xaricdə dərman istehsal edən zavodun təyin etdiyi limitə uyğun qədər məhsul ala bilir* ”

✍ ***Banu***

# Su çərşənbəsi - Novruzun xəbərçisi

## Bayram

***Ölkəmizin zəngin mədəni irsini, tarixi adət-ənənələrini özündə əks etdirən Novruz Bayramı yaxınlaşır. Qarşıdan bayram carçısı sayılan Su çərşənbəsi gəlir. Keçmiş zamanlardan bu günə kimi Novruz təbiətin canlanması, suyun, odun, havanın və torpağın oyanışı kimi xarakterizə olunur. Novruz təzə ili, baharın ilk gününü qarşılamaq, gecə ilə gündüzün bərabərləşməsi deməkdir. Xalqımız yeni gün olan Novruz ərəfəsində çərşənbələrə daha böyük önəm verir.***



Türk xalqlarının inancına görə su hər şeyin başlanğıcı hesab olunur. Əbəs deyil ki, bizləri addım-addım Novruza aparan çərşənbələrin ilki də məhz Su çərşənbəsidir.

Su çərşənbəsi günü bütün evlərdə bayrama hazırlıq işləri başlayır. Bəzi bölgələrdə bu çərşənbəni "Yalançı çərşənbə", "Əzəl çərşənbə", "Əvvəl çərşənbə", "Gözəl çərşənbə", "Gül çərşənbə", "Sular Novruzu" da adlandırırlar.

Su çərşənbəsində su və su mənbələri təzələnir, arxlar qaydaya salınır, su hövzələrində abadlıq işləri görülür, su ilə bağlı müxtəlif şənliklər keçirirlər. Su bağlıdır. Hələ gün doğmamışdan hamı su üstünə gedir, əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyir, su üstündən atlanır, yaralıların yarasına su çiləyirlər. Xalqın inamına görə, Su çərşənbəsi günü "təzə su"dan keçənlər, azarını, bezarını ona verənlər ilboyu xəstəlikdən uzaq olarlar. Bundan başqa, xalqımızın qədim inanclarına görə, Su çərşənbəsi günü həyət-bacaya su çiləyib, ev-eşiyi təmizləyərlər.

Həmin gün su üstündə müxtəlif mərasimlər keçirilir, qədim türklərdə su tanrıları sayılan Aban və Yadanın şərəfinə nəğmələr oxunur. Su ilə bağlı inanclarda deyilir:

**Süfrəyə su dağılması aydınlıqdır,**
**Su içən adamı qəfil vurmazlar,**
**Su içən adamı ilan çalmaz,**
**Lal axan sudan keçərkən suyum irəlilə deyərlər**
**Bir çox atalar sözündə də suyun müqəddəsliyi əks olunur:**
**Su olan yerdə dirilik olar,**
**Su ehsandır,**
**Su murdarlıq götürməz,**
**Suyu çirkləndirənin nəşini yumağa su tapılmaz.**

Qeyd edək ki, bu il Azərbaycanda martın 2-də Od, martın 9-da Hava (Yel), martın 16-da isə axırıncı - Torpaq çərşənbəsi qeyd olunacaq. Yaz fəslinin ölkəmizə gəlişi isə martın 20-si Bakı vaxtilə saat 13:37-yə təsadüf edəcək.

Gününüz su qədər aydın, bayramınız mübarək olsun!

✍ *Banu*

# İki ildə psixi pozuntusu olanlar tərəfindən 14 qətl törədilib



**2020-2021-ci illərdə Azərbaycanda psixi pozuntusu olan şəxslər tərəfindən 14 qəsdən adam öldürmə hadisəsi törədilib.**

Bu barədə Baş Prokurorluğun açıqladığı məlumatda deyilir. Xəbərə görə, 2020-ci ildə törədilmiş 159 qəsdən adam öldürmə hadisəsinin 11-ni, 2021-ci ildə törədilmiş 156 qəsdən adam öldürmə hadisəsinin 3-nü psixi pozuntusu olan şəxslər törədib.

Qeyd olunub ki, cinayəti anlaqsız vəziyyətdə törətmiş şəxsin psixi pozuntusu özünə və ya başqa şəxslərə zərər yetirməsi təhlükəsi yaratdıqda həmin şəxslərin barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi məsələsinə baxılması üçün toplanmış iş məhkəməyə göndərilir. Məhkəmənin qərarı ilə belə şəxslərə tibbi xarakterli məcburi tədbirlərdən biri təyin edilir.

# Sahibkarlıq subyektlərində 2001 yoxlama

**2021-ci ilin 9 ayı ərzində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən ümumilikdə, qida sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərində 2001 yoxlama aparılıb. Hafta.az xəbər verir ki, yoxlamalardan 1396-sı planlı, 605-i plandankənardır.**

AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

Həyata keçirilən nəzarət tədbirləri çərçivəsində 4400 iş üzrə inzibati tənbehvermə haqqında qərar qəbul edilib. İnzibati tənbehvermə haqqında qərarlar əsasında 2,110,900 AZN məbləğində cərimə tətbiq edilib. 213 müəssisədə "Məhdudlaşdırıcı tədbirlərin tətbiqi barədə" qərar qəbul olunub. Məhdudlaşdırıcı qərarlardan 88-i ticarət obyektləri, 38-i ictimai iaşə müəssisəsi, 87-si istehsal müəssisələri və digər fəaliyyət sahələri barəsində olub.

AQTA-dan verilən məlumata görə, sözügedən dövrdə Agentlik tərəfindən 50,147 ədəd qida təhlükəsizliyi sertifikatı, 39,243 ədəd fitosanitar sertifikat və icazə sənədi, 10,800 ədəd baytarlıq sertifikatı və icazə sənədi verilib. Qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarəti tədbirləri nəticəsində məhv edilmiş məhsulların siyahısı isə belədir: "206 ton ət və ət məhsulları, 28 ton balıq məhsulları, 665 ton və 13,748 dkl süd və süd məhsulları, 5,018 ədəd yumurta, 615 dekalitr alkoqollu və 18,045 dekalitr alkoqolsuz içkilər, 123 ton və 36 dekalitr tamlı məhsullar qrupuna aid digər məhsullar, 240 ton şəkər, bal və şəkərli qənnadı məmulatları, 32 ton un və un məmulatları, 60 ton və 37 dekalitr mayonez və yağ məhsulları, 22 ton dənli-paxlalı bitkilərdən məhsullar, 317 ton meyvə və tərəvəz məhsulları, 6 ton, 2 dekalitr və 74,961 ədəd qida əlavələri, 8 ton kulinariya məmulatları, 20 baş iribuynuzlu və xırdabuynuzlu heyvan, 3 ton və 41 dekalitr baytarlıq preparatları, 949 kq taxıl, 106 ton meyvə və tərəvəz, 109 ədəd üzüm tingi".



# Okko onlayn kinoteatrı "Azercell" ilə smartfonlarınızda!

®

**Ölkənin lider mobil operatoru rəqəmsal məhsullar portfelini genişləndirməyə davam edir. Bu dəfə "Azercell Telekom" MMC MDB-nin ən böyük onlayn kinoteatrlarından biri olan Okko-nu yerli bazarda xüsusi şərtlərlə təqdim edir.**




Mobil operator öz abunəçilərinə dünyada 20 milyona yaxın müştərinin rəğbətini qazanan bu tətbiqdən 45% - dək endirimlə yararlanmaq imkanı verir. Qeyd edək ki, Okko vasitəsilə 90.000-dən çox bədii və cizgi filmlərini, eləcə də serialları heç bir reklam fasiləsi olmadan Full HD 4K və 8K keyfiyyətində izləmək mümkündür. Həmçinin, xidmət smart funksiyası olan televizorların əksəriyyətində də mövcuddur.

Azercell Okko onlayn kinoteatrına güzəştli qiymətlərlə Optimum paketinə abunəliyi təqdim edir. Bu paketə Paramount+, Vip Play, Okko Lite, uşaqlar üçün xüsusi kontent, elm-təhsil sahəsinə dair veriliş və filmlər daxildir. Bundan əlavə, paketə abunə olanlar karaoke xidmətindən istifadə edib, dünya üzrə məşhur hitləri ifa etmək imkanı da əldə edirlər.

Okko-ya üç növ - gündəlik, həftəlik və aylıq abunə təklif edilir. Gündəlik abunənin xidmət haqqı 0.35 AZN, həftəlik abunə 1.5 AZN, aylıq abunə isə cəmi 4.99 AZN təşkil edir. Hazırda bu xidmətin aylıq abunəliyinə qoşulanlar 30 gün Okko onlayn kinoteatrından pulsuz istifadə etmək imkanı qazanacaq. Okko xidmətinə həm USSD kod, həm SMS vasitəsilə abunə olmaq mümkündür. Gündəlik paket üçün *800#, həftəlik abunə üçün *890#, aylıq paket üçünsə *899# kodunu yığmaq lazımdır. Bu zaman xidmətə qoşulmaq üçün məlumat və yükləmə linki SMS-lə telefona göndərilir.

SMS vasitəsilə xidmətə qoşulmaq üçün Start gun, Start hefte və Start ay sözlərini paket növünə uyğun olaraq 6660 qısa nömrəsinə göndərmək lazımdır. Bu xidmətə abunəliyi Azercell-in "Kabinetim" mobil tətbiqi üzərindən də aktivləşdirmək olar. Bağlantını asanlaşdırmaqla abunəçilərinin həyatını daha da dolğun etməyi hədəfləyən Azercell indi də onlara bir abunədə minlərlə filmə baxmaq fürsətindən yararlanmağa dəvət edir.

## HƏFTƏ REYTİNQ

### Həftənin İSTEFASI



Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti Ramiz Mehdiyev istefa verib. Xatırladaq ki, hazırda AMEA-nın birinci vitse-prezidenti akademik Arif Həşimovdur. Qurumun nizamnaməsinə əsasən, müvəqqəti idarəçilik birinci vitse-prezidentin səlahiyyətindədir.

### Həftənin CƏRİMƏLİSİ



Bakıda qəza törədən Silahlı Qüvvələrin Baş Qərargahının sabiq rəisi Nəcməddin Sadıkov cərimələnib. Nəcməddin Sadıkov idarə etdiyi 90-AS-020 nömrəli "Toyota Land Cruiser" markalı avtomobillə yanvarın 7-də qəza törədib. Yol-nəqliyyat hadisəsi nəticəsində N.Sadıkov hadisə üzrə təqsirli bilinib. Onun barəsində İnzibati Xətalar Məcəlləsinin 327.1-ci maddəsi üzrə protokol tərtib olunub. Digər nəqliyyat vasitəsində dəymiş ziyan ödənilib. Nəcməddin Sadıkov barəsində tərtib olunmuş cəriməni ödəyib. Qeyd edək ki, bu maddə üzrə təqsirli bilinən şəxs 40 manat cərimə edilir.

### Həftənin KORONALISI



Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxub. O, bu barədə "Twitter"də paylaşım edib. Çavuşoğlu qeyd edib ki, koronavirus testinin nəticəsi pozitivdir. Nazir xəstəliyi yüngül formada keçirdiyini vurğulayıb. O, fəaliyyətinə evdən davam edəcəyini əlavə edib.

### Həftənin STATİSTİKASI



Azərbaycan vətəndaşları Ermənistanda azı 6 daşınmaz əmlaka sahibdir. Bu barədə məlumatı "Sputnik Ermənistan"ın sorğusuna cavab olaraq ölkənin Kadastr Komitəsi verib. "2010-2021-ci illərdə Ermənistanda ümumi olaraq 71 Türkiyə, 6 Azərbaycan vətəndaşı tərəfindən daşınmaz əmlak hüququnun qeydiyyatı həyata keçirilib", - deyə məlumatda qeyd olunub. Komitə bildirib ki, Azərbaycan vətəndaşları Ermənistanda 2012-ci ildə 2 ədəd, 2018 və 2019-cu illərdə 1 mənzil alıb. Daha bir mənzil isə 2012-ci ildə Azərbaycan vətəndaşına pay olaraq verilib. Bununla yanaşı, digər bir ölkə vətəndaşı ictimai əhəmiyyətli obyekt alıb.

### Həftənin NAMİZƏDİ



Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədovun oğlu Sərdar ölkə prezidentliyinə namizəd olub. Bu barədə məlumatı Türkmənistanın "Salam News" portalı yayıb. Məlumata görə, Türkmənistanın Demokratik Partiyasının növbədənkənar toplantısı keçirilib.

Toplantının gündəliyinə əsasən, Baş nazirin müavini Sərdar Berdıməhəmmədovun prezidentliyə namizədliyi irəli sürülüb.

### Həftənin CİNAYƏTKARI



"Qısa müddət ərzində Araik Arutyunyanın tutularaq istintaqa təqdim edilməsi və məhkəməyə çıxarılması təmin ediləcək". Bunu Baş Prokurorluğun İstintaq idarəsinin rəisi Nemət Əvəzov deyib. O bildirib ki, 2020-ci il Gəncədə əhalinin sıx məskunlaşdığı əraziyə edilmiş terror hücumlarına görə məsuliyyəti Arutyunyan öz üzərinə götürüb:

✍ *Azad Əliyev*

## GÜNÜN FOTOSU



Dünyaşöhrətli səyahətçilərin Şuşa səfəri.

# YUNESKO-nun Qafqaz səfəri

**Qasım Hacıyev,**
Qafqazşünaslıq İnstitutu ermənişünaslıq şöbəsinin müdiri

Əgər bütün bu hallar bu gün YUNESKO tərəfindən yoxlanılıb ədalətli prinsiplə siyahıya alınarsa, bunu yalnız alqışlamaq olar.

▸▸ Səh. 3

## STATİSTİKA



■ Beynəlxalq Qəhvə Təşkilatının məlumatına görə, adambaşına ən çox qəhvə istehlakı Finlandiyadadır. Bu ölkənin hər bir sakini ildə orta hesabla 12 kq qəhvə istehlak edir.

■ Siyahıda sonrakı yerləri Norveç (adambaşına 9,9 kq), İslandiya (9 kq), Danimarka (8,7 kq) və İsveç (8,2 kq) tutur.

■ Qəhvəni "dolce vita"nın ayrılmaz hissəsinə çevirən italyanlar hər il adambaşına 5,9 kq qəhvə istehlak edirlər.



▸▸ Səh. 7

# Apteklərdən "yoxa çıxan" dərmanlar